RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 9 (8325) CÜMƏ, 17 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Bu gündən seçkilərin təşviqat mərhələsi başlayır

Respublikamız parlament seçkiləri ərəfəsindədir. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən altıncı çağırış Azərbaycan Milli Məclisinə seçkilər fevral ayının 9-na təyin olunub. Ötən ilin dekabr ayından başlamış seçki kampaniyası seçkilərlə bağlı əsas hərəkət və tədbirlərin həyata keçirilməsi üçün qanunvericiliyə uyğun olaraq lazımi şəraitin yaradılması ilə səciyyələnir. Bu gündən isə seçki kampaniyasının təşviqat mərhələsi başlayır.

## Seçkilərə yüksək əhvali-ruhiyyə ilə

Azərbaycan xalqı parlament seçkilərinə yüksək əhvali-ruhiyyə ilə gedir. Çünki dünyanın bir sıra ölkələrində, eləcə də Azərbaycana yaxın coğrafiyalarda siyasi-hərbi qarşıdurmaların hələ də davam etdiyi, sosial-iqtisadi problemlərin səngimədiyi şəraitdə respublikamız sabitlik şəraitində yaşayır, öz inkişafında yeni uğurlara imza atır. Təsadüfi deyil ki, ötən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev ilk olaraq bu məsələyə münasibət bildirərək dedi: *"Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını görürdük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması - bütün bunlar dünyanın demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir".*

Dünyadakı bütün kataklizmlərə baxmayaraq, Azərbaycan öz yolu ilə inamla addımlayır. Ən əsası da odur ki, beynəlxalq miqyasda cərəyan edən son hadisələr respublikamızda uğurlu və həyati qabiliyyətli siyasi-iqtisadi modelin olduğunu təsdiq edir.

## Təşviqat seçki prosesinin əsas mərhələlərindən biridir

Seçkidə namizədlərin, yaxud partiyaların proqramlarının təqdim edilməsi əsasında seçicilərin rəğbətinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu mənada seçkiqabağı təşviqat seçki prosesinin mühüm mərhələlərindən biridir. Məhz seçkinin bu mərhələsində prosesə qoşulan subyektlər özlərini təbliğ etmək üçün birbaşa seçicilərlə təmasa girərək onların rəğbətini qazanmaq imkanı əldə edir, digər namizədlərdən daha üstün olmasını sübut etməyə çalışır. Bu isə seçkidə qalib gəlmək üçün olduqca vacib bir məsələdir. Seçkilər zamanı seçkiqabağı təşviqatla seçkilərdə iştirak etmək üçün qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, səlahiyyətli nümayəndələr və vəkil edilmiş şəxslər məşğul olmaq hüququna malikdirlər. Təşviqat kütləvi informasiya vasitələri, vətəndaşlarla görüşlər və qanunla qadağan edilməyən digər üsullarla aparıla bilər.

İndiyə qədər respublikamızda keçirilən bütün seçkilərdə siyasi partiyalara və namizədlərə seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq bərabər təbliğat və təşviqat imkanları yaradılıb. O cümlədən parlament və bələdiyyə seçkilərində Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq 60-dan çox dairədə namizədini irəli sürən siyasi partiyalara və onların bloklarına televiziya kanallarında pulsuz efir vaxtı verilib, bütün namizədlərə öz seçiciləri ilə görüşmək və fikirlərini çatdırmaq üçün imkan yaradılıb, kütləvi informasiya vasitələrində ödənişsiz dərc üçün yer ayrılıb. KİV-də ödənişli təşviqat aparılması da qanunvericiliklə təsbit olunub. Beynəlxalq və yerli müşahidəçilər də hər bir seçki zamanı siyasi partiyalar, siyasi partiya blokları və müstəqil namizədlər üçün lazımi şəraitin yaradıldığını qeyd ediblər.

*Ardı 3-cü səh.*

# "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 15 noyabr tarixli 519 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 15 noyabr tarixli 519 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №11, maddə 942; 2005, №9, maddə 818; 2007, №5, maddə 459; 2009, №4, maddə 238, №5, maddə 383; 2013, №6, maddə 702; 2014, №12, maddə 1627; 2015, №8, maddə 907, №10, maddə 1191; 2016, №4, maddə 737; 2017, №1, maddə 51) ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası"nın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini
Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri
Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti
"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri

**Komissiyanın katibi**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun rəhbəri".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2020-ci il*

# Dərin islahatlar sürətli inkişaf dövrünə uğurlu keçidi təmin edir...

## Prezident İlham Əliyevin iqtisadi strategiyasına uyğun olaraq bu il də Azərbaycanda mühüm layihələr reallaşacaq

İstənilən ölkənin sosial-iqtisadi inkişafı sabitliyin qorunub saxlanılmasından, eləcə də xalqın rifah halının yaxşılaşdırılması yönündə atılan mütərəqqi addımlardan keçir. Tarixində heç vaxt indiki qədər güclü olmayan Azərbaycanda da məhz bu siyasət öz əksini tapır. Çünki həyata keçirilən siyasətin fövqündə Azərbaycan vətəndaşı dayanır.



### İslahatların bəhrəsi

2019-cu il Azərbaycanın tarixində dərin islahatlar ili kimi qaldı. Prezident İlham Əliyevin sosial-iqtisadi, struktur və kadr islahatları çox yüksək qiymətləndirildi. Ölkədə mühüm yerli və beynəlxalq layihələr reallaşdı. Aparılmış islahatlar geniş sosial paketi həyata keçirməyə imkan yaratdı.

Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı ötən il qazanılan nailiyyətləri, həyata keçirilən islahatların uğurlarını dəyərləndirdi və qarşıdakı hədəfləri müəyyənləşdirdi. Prezident dedi ki, xalq tərəfindən göstərilən dəstək, dövlət siyasətinə verilən yüksək qiymət həm siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir, həm də qarşıya qoyulan hədəflərə çatmaq üçün yüksək ruh verir.

*Ardı 3-cü səh.*

# Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilib

## Prezident İlham ƏLİYEV: "Bu onu göstərir ki, son vaxtlar nəqliyyat sahəsində aparılmış işlər ən yüksək qiymətə layiqdir"

Ölkəmizdə icra edilən nəhəng infrastruktur layihələri beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Həmin qurumlar öz hesabatlarında dəfələrlə Azərbaycanda görülən bu işlərin təkcə ölkəmiz üçün deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər.

Görülən işlər sayəsində ölkəmiz hazırda mühüm nəqliyyat dəhlizləri - Şərq-Qərb, Şimal-Cənub marşrutları üzrə önəmli qovşağa çevrilib. İndi bu istiqamətlərdə gedən bütün yollar Azərbaycanda birləşir.

Tarixdə mövcud olan İpək yolunun bərpasından sonra Azərbaycan Şərqlə Qərbi birləşdirən mühüm ölkə sayılır. İpək yolunun bərpasında Azərbaycan həm təşəbbüsçü kimi, həm də ilk dəfə bu istiqamətdə mühüm işlər görən ölkə kimi tarixə düşüb. Belə ki, Azərbaycanda icra edilən nəhəng infrastruktur layihələri sayəsində Şərqdən Qərbə və ya əksinə avtomobil və dəmir yolu ilə yüklərin daşınmasında böyük imkanlar yaranıb.

Prezident İlham Əliyev yanvarın 15-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən ölkəmizdə icra edilən nəhəng infrastruktur layihələrinin beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirildiyini vurğulayaraq demişdir: "Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda nəqliyyat sahəsində görülmüş işlərə yüksək qiymət verib. Bütövlükdə Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq. Avtomobil yollarının keyfiyyətinə görə, biz dünyada 27-ci yerdəyik.

*Ardı 5-ci səh.*



# Qubanın var alması

Bu əvəzsiz meyvə yenə də rayonun kənd təsərrüfatında xüsusi çəkiyə malikdir

Quba barədə danışanda almadan söz açmamaq mümkün deyil. Rayonun kənd təsərrüfatında fındıq, qoz və digər məhsullar yetişdirilməsinə baxmayaraq, almanın xüsusi yeri var.

Təxmini hesablamalara görə, Qubada alma becərilməsinin tarixi yüz illəri üstələyir. Əvvəllər də burada əhalinin şəxsi təsərrüfatlarında alma becərilmiş və müxtəlif yerlərə daşınaraq satılmışdır.

Almanın daha geniş becərilməsi və iqtisadiyyatın ayrıca bir sahəsinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi illərə təsadüf edir. Həmin dövr Qubada bağçılığın inkişafı dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdi. Ümummilli Liderin təşəbbüsü ilə 1974-cü ildə "Meyvəçiliyin intensivləşdirilməsi və ixtisaslaşdırılması əsasında daha da inkişaf etdirilməsi tədbirləri haqqında" hökumət qərarının qəbul olunması Azərbaycanda bağçılıq təsərrüfatının inkişafında, sözün əsl mənasında, yeni mərhələnin başlanğıcı oldu.

*Ardı 7-ci səh.*

# Ermənistanın keçmiş baş naziri Paşinyanı yalançılıqda ittiham etdi

## Dərinləşən böhran sosial-iqtisadi tənəzzülü sürətləndirir

Ermənistanda getdikcə ağırlaşan sosial-iqtisadi durumun ölkədə sosial zəmində iğtişaşlara səbəb ola biləcəyinə dair edilən xəbərdarlıqların sayı artmaqdadır. Çünki real vəziyyət cari il ərzində insanların maddi rifah halının daha da pisləşəcəyini, böyük əksəriyyətin gündəlik zəruri ehtiyacları belə təmin etmək iqtidarında olmayacağını göstərir. Bu da öz növbəsində cəmiyyətdə mövcud narazılıq əhvali-ruhiyyəsini əhəmiyyətli dərəcədə yüksəldir.

Bunu Ermənistanın sabiq baş naziri, iqtisadçı Qrant Baqratyan da xüsusi olaraq vurğulayır. Qeyd edir ki, bu gün Ermənistanda ağır sosial-iqtisadi vəziyyət hökm sürür, Paşinyan hökumətinin günahı ucbatından ölkə böyük fəlakətə yaxınlaşır.

Sabiq baş nazir yerli mətbuata açıqlamasında onu da vurğulayıb ki, Nikol Paşinyan niyə statistika komitəsini qabaqlayaraq rəsmi elan olunmayan rəqəmləri yayımlayır. Ermənistan hökuməti yanlış iqtisadi siyasət aparır, nəticədə ölkədən kapital axını güclənib: "Biznes qonşu ölkələrə üz tutur - harada ki, iş qurmaq daha sərfəlidir. N.Paşinyanın nazirlər kabinetinə müraciət edirəm ki, niyə siz dollar qiymətlərini qaldırır, dramla olan qiymətləri isə sabitləşdirirsiniz? Biz böyük fəlakət qarşısındayıq. Ölkədə kasıblıq səviyyəsi hələ də 25 faizdən aşağı deyil. Hökumət deyir ki, ölkə əhalisinin cəmi 1,5 faizi olduqca kasıb yaşayır. Ancaq daha 24 faiz də bu kateqoriyaya aiddir".

Q.Baqratyan onu da deyib ki, əgər sabah baş nazir olarsa, milli statistika komitəsinin rəhbəri minimum həbs edilib həbsxana divarları arxasına düşəcək. Bildirib ki, bu qurum tərəfindən işsizliyin səviyyəsi barədə təqdim olunan məlumatlar saxtalaşdırılıb.

*Ardı 5-ci səh.*

## Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2020-ci il*

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 106 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 106 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 174; 2002, № 1, maddə 71; 2004, № 4, maddə 282, № 7, maddə 566; 2005, № 8, maddə 733; 2007, № 12, maddə 1251; 2009, № 2, maddə 93; 2012, № 5, maddə 442; 2015, № 11, maddə 1301; 2016, № 12, maddə 2174; 2018, № 7 (II kitab), maddə 1597) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri
Azərbaycan Respublikasının Daxili İşlər naziri
Azərbaycan Respublikasının Xarici İşlər naziri
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi

**Komissiyanın katibi**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Miqrasiya və vətəndaşlıq məsələləri sektorunun müdiri.”.

2. 2-ci hissədən “və hərbi məsələlər” sözləri çıxarılsın.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2020-ci il*

## Azərbaycanın Baş Naziri Əli Əsədov Mixail Mişustini Rusiya Federasiyası Hökumətinin Sədri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: “Hörmətli Mixail Vladimiroviç, Rusiya Federasiyası Hökumətinin Sədri vəzifəsinə təyin olunmağınız münasibətilə səmimi təbriklərimi qəbul edin. Möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsi xüsusi məmnunluq doğurur. Əminəm ki, biz birgə səylərimizlə ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsini, qarşılıqlı faydalı ticarət-iqtisadi və investisiya əməkdaşlığının genişlənməsini təmin edəcəyik. Azərbaycan ölkələrimizin dost xalqları naminə bütün sahələrdə Rusiya ilə konstruktiv dialoqun davam edəcəyinə ümid bəsləyir”.

Baş Nazir Əli Əsədov Mixail Mişustinə möhkəm cansağlığı, rifah və məsul fəaliyyətində uğurlar arzulayıb.

## Baş Nazir Əli Əsədov 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi ilə bağlı Tədbirlər Planını təsdiqləyib

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov “Azərbaycan Respublikası Prezidentinin yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Sərəncam imzalayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Sərəncama əsasən, Tədbirlər Planında nəzərdə tutulan icraçılar müvafiq tədbirlərin müəyyən olunmuş icra müddətində yerinə yetirilməsini təmin etməli və görülmüş işlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməlidirlər.

Tədbirlər Planında maliyyə-bank sektorunu, işgüzar mühitin yaxşılaşdırılmasını, iqtisadi artımın dayanıqlılığına, beynəlxalq iqtisadi əməkdaşlığa, sosial tədbirlərin gücləndirilməsinə və gömrük sahəsinə dair məsələlər nəzərdə tutulub.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 16-da Siyəzən, Yardımlı, Ağsu, Ağcabədi və Daşkəsən rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Vətəndaşların qəbulu keçirilib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov yanvarın 16-da Sabirabadda Sabirabad və Saatlı rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

***AZƏRTAC***

## BMT və Azərbaycan arasında yeni əməkdaşlıq çərçivəsini formalaşdırmaq üçün ikigünlük seminar işə başlayıb





Yanvarın 16-da Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan Respublikası arasında yeni əməkdaşlıq çərçivəsini formalaşdırmaq üçün ikigünlük seminar işə başlayıb. BMT-nin Azərbaycandakı nümayəndəliyinin təşkil etdiyi və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının dəstəklədiyi tədbirin məqsədi 2021-2025-ci illəri əhatə edən BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin strateji prioritetlərini müəyyənləşdirməkdir.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Azərbaycan hökumətinin BMT ilə əməkdaşlığa yüksək qiymət verdiyini bildirib, həmin əlaqələrin ölkəmiz üçün faydalı olduğunu deyib.

“Son 30 ildə yaradılan gənc dövlətlər içərisində ən uğurlu və sürətlə inkişaf edən dövlətlərdən biri də Azərbaycandır. Bu illər ərzində Azərbaycanın iqtisadiyyatı böyük inkişaf mərhələsi keçib. İqtisadiyyat dəfələrlə artıb, ölkəmizin siması köklü surətdə dəyişib, əhalinin həyat səviyyəsi və həyat keyfiyyətləri istiqamətində böyük layihələr həyata keçirilib. Bütün bunların nəticəsində Azərbaycan vətəndaşlarının həyatı, əhalinin yaşayış səviyyəsi ciddi şəkildə yaxşılaşıb. Bu gün Azərbaycan yüksək orta səviyyəli inkişaf etmiş ölkələr sırasına daxil olub.

Azərbaycanın BMT ilə əlaqələri müxtəlif sahələri əhatə edir. İndiki dövrdə BMT-nin dünya miqyasında həyata keçirdiyi qlobal layihələrdən biri 2030-cu ilə qədər dünyamızın transformasiyası ilə əlaqədardır. Azərbaycan bu layihəyə qoşulub. Hesab edirəm ki, 2030-cu ilə qədər dünyamızın transformasiyası layihəsinin həyata keçirilməsində də Azərbaycan öz töhfələrini verəcək. Ölkəmiz həmin layihə çərçivəsində ortaya qoyulmuş məqsədlərin və hədəflərin əldə olunması ilə əlaqədar təhlillər apardıqdan sonra özünün əsas prioritetlərini müəyyənləşdirib. Başlıca hədəfimiz ondan ibarətdir ki, Azərbaycanın milli inkişaf strategiyası BMT-nin müəyyənləşdirdiyi və 2030-cu ilə qədər dünyamızın transformasiyasını nəzərdə tutan proqramdakı strateji məqsədlərə və hədəflərə tamamilə uyğun gəlsin.

Azərbaycanın inkişafı bütün sahələrdə özünü göstərir, o cümlədən əhalinin sayı böyük templə artmaqdadır. Son 30 ildə Azərbaycan əhalisi 3 milyon nəfər artıb ki, bu da 40 faiz artım deməkdir. Hər il Azərbaycanın əmək bazarına 100 mindən çox işçi qüvvəsi daxil olur. Hazırda əhalinin 50 faizdən bir qədər çoxu şəhərlərdə yaşayır. Bu da qarşımıza kənd yerlərində məşğulluğun artırılması, həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı vəzifələr qoyur.

Qarşımızda duran ən mühüm vəzifələrdən biri də sosial sferanın inkişaf etdirilməsidir. Son illərdə insanların həyat səviyyəsinin və həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində çox böyük layihələr həyata keçirilib. Ötən il Prezident İlham Əliyevin təşəbbüsü ilə böyük sosial layihələr, paketlər həyata keçirilib və insanların həyat səviyyəsində əhəmiyyətli dəyişiklik əldə edilib. Lakin Azərbaycanın özündən asılı olmayan səbəblərdən həll etməli olduğu məsələlər də var. Ölkə ərazisinin 20 faizi işğal altındadır. Əhalinin 10 faizi, yəni təxminən 1 milyona yaxını məcburi köçkündür. Onların sosial rifahının yüksəldilməsi də dövlətin diqqət mərkəzindədir” deyə Baş Nazirin müavini vurğulayıb.

O, 5 illik proqramın ölkəmizdə həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olacağını bildirib. Əli Əhmədov strateji hədəflərə çatmaq üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

BMT-nin rezident əlaqələndiricisi Qulam İshaqzai “BMT-nin inkişaf sistemi islahatları çərçivəsində 2030-cu ilə baxışı” mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün milli maliyyə strategiyasının hazırlanmasının vacibliyini qeyd edib. Rezident əlaqələndirici növbəti 5 il ərzində görüləcək işlərin nəticələrinin Azərbaycanda əhalinin hər bir təbəqəsi arasında hiss ediləcəyinə ümidvar olduğunu bildirib.

“Azərbaycanın 2030-cu il və sonrakı dövrlə bağlı inkişaf strategiyası” mövzusunda məruzə ilə çıxış edən BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin İdarə Komitəsinin həmsədri, İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın BMT-nin qlobal təşəbbüslərində fəal iştirak etdiyini və öz töhfəsini verdiyini diqqətə çatdırıb. Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi və iqtisadi inkişafa nail olmaq üçün həyata keçirilən tədbirlərdən danışan İqtisadiyyat naziri yoxsulluğun 49 faizdən 4.9 faizə endirildiyini, ölkəmizin yoxsulluğa və aclığa qarşı mübarizəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xüsusi mükafatına layiq görüldüyünü deyib.

Nazir bildirib ki, 2016-cı ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanla yaradılmış Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası Azərbaycan üçün prioritet hesab edilən 17 məqsəd, 88 hədəf, 119 göstərici seçib. Bu hədəflər ölkə üzrə hazırlanan dövlət proqramları, strategiyalar, milli fəaliyyət planlarına inteqrasiya edilib. Dayanıqlı İnkişaf Məqsədlərinin milli prioritetlərə uyğunluğunu müəyyən etmək üçün sürətli kompleks qiymətləndirmə aparılıb. Qiymətləndirmənin nəticəsinə görə, mövcud strateji sənədlərin həmin məqsədlərə uyğunluğu 70 faiz təşkil edib.

Sonra BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin planlama prosesi üzrə məsləhətçisi Peter Midlbrokun moderatorluğu ilə “BMT- Azərbaycan əməkdaşlığının 2030 gündəliyinə nail olmaqda əlavə etdiyi dəyərlər” mövzusunda panel müzakirə həyata keçirilib.

Müzakirədə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlardan danışan Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib: “İslahatların həyata keçirilməsi üçün üç hədəf müəyyənləşdirilib. Birincisi sosial müdafiənin maliyyə təminatının gücləndirilməsi əhalinin rifahının artırılmasına yönəlib. Hətta ötən il bu sahədə ölkə əhalisinin 42 faizinin gəlirlərinə və onların rifahına birbaşa təsir edən sosial zərf qəbul edilib. Onun maliyyə təminatı da dövlət büdcəsinin 12-13 faizinin əlavə olaraq sosial sahəyə yönəldilməsi sayəsində baş verdi. Minimum əməkhaqqı ölkədə 92, minimum pensiya 72, bütün müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb.

İkinci qrup hədəflər inzibati təcrübə sahəsində səmərəliliyin artırılmasıdır və bu sahədə də qarşıya böyük tələblər qoyulub. Prezidentin müvafiq fərman və sərəncamlarına uyğun olaraq ötən il 19 növ müavinət və təqaüdün ödənilməsi, eləcə də pensiya təminatı avtomatlaşdırılıb. Aparılan islahatlar təkcə bu il 200 mindən çox müavinət və pensiya təminatını tam elektron qaydada və proaktiv şəkildə birbaşa əldə etmək imkanı yaradır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə DOST agentlikləri və “DOST” mərkəzlərinin istifadəyə verilməsinə başlanılıb. Ötən il ölkədə 2 “DOST” mərkəzi istifadəyə verilib. Təkcə 8 ayın nəticələrinə əsasən 63 mindən çox vətəndaş “bir pəncərə”dən 132 xidməti əldə etmək imkanı qazanıb. İndiyədək həmin xidmətlərdən istifadə edən 63 min vətəndaşın məmnunluq səviyyəsi 95,2 faizdir və bu, bizim gözlədiyimizdən də çoxdur.

Hədəflərin üçüncü qrupuna gəldikdə isə bu, daha çox orta və uzunmüddətli dövr üçün konseptual yanaşmanın müəyyən edilməsi ilə əlaqədardır”.

Sahil Babayev hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin ixtisaslaşmış qurumları arasında 14 layihənin icra olunduğunu da diqqətə çatdırıb.

Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev Azərbaycanda ekoloji məsələlərin diqqət mərkəzində saxlanıldığını deyib. O, bunun bariz nümunəsi kimi 2010-cu ilin “Ekologiya ili” elan olunduğunu, ötən ilin isə “Nəsimi ili” çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə bir gündə 650 min ağacın əkildiyini qeyd edib. Nazir müavini işğal edilmiş ərazilərdə erməni vandallarının təbiətimizə vurduğu ziyanlardan da bəhs edib.

İqlim dəyişmələri məsələlərinə toxunan F.Əliyev heç bir ölkənin ondan kənarda qalmadığını diqqətə çatdırıb.

Nazir müavini Azərbaycanda suyun qənaətlə istifadəsi, biomüxtəlifliyin mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, meşə ərazilərinin artırılması, yoxsulluğun azaldılması, akvakulturanın inkişafı sahəsində tədbirlər görüldüyünü vurğulayıb.

Panel müzakirəsi zamanı həmçinin İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva çıxış edərək BMT-Azərbaycan inkişafının əldə etdiyi dəyərlər, milli inkişaf üçün lazımi ehtiyaclar, Dayanıqlı İnkişaf Məqsədləri üçün tərəfdaşlığın gücünü artırmaqla bağlı öz fikirlərini bölüşüblər.

Yanvarın 17-də seminara yekun vurulacaq.

## Müdafiə naziri tikintisi yekunlaşmaq üzrə olan hərbi obyektlərə baxış keçirib







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən şəxsi heyətin xidməti, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə inşaat və təmir-bərpa işləri intensiv şəkildə davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə naziri, general-polkovnik Zakir Həsənov tikintisi yekunlaşmaq üzrə olan hərbi hissələrdən birində olub. Məruzə edilib ki, tikintisi qısa müddətdə sona çatdırılacaq qərargah binası, əsgər yataqxanaları, tibb məntəqəsi və digər obyektlər hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərmələri üçün nəzərdə tutulub.

Hərbi hissədə aparılan tikintinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

9 fevral Milli Məclisə seçkilər günüdür

# Bakıda “Seçkinin mediada işıqlandırılması” mövzusunda informasiya sessiyası keçirilib

Yanvarın 16-da Avropa Şurası Mərkəzi Seçki Komissiyası ilə birlikdə Bakıda “Seçkinin mediada işıqlandırılması” mövzusunda informasiya sessiyası təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbir Avropa Şurasının “Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi” layihəsi çərçivəsində keçirilib. Əsas məqsəd fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri öncəsi jurnalistlərin gender bərabərliyinə də xüsusi diqqət yetirərək seçkinin mediada işıqlandırılması sahəsində Avropa Şurası standartlarına dair məlumatlılığın artırılması olub. Tədbirdə 60-a yaxın media nümayəndəsi, eləcə də dövlət qurumlarının və diplomatik missiyaların nümayəndələri, beynəlxalq və yerli ekspertlər iştirak ediblər.



Sessiyada çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, əvvəlki parlament seçkiləri ilə müqayisədə fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar indiyədək rekord sayda deputatlığa namizəd qeydə alınıb. Yanvarın 15-nə olan məlumata görə, 1534 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

MSK sədri qeyd edib ki, seçki prosesində mətbuat fəal iştirak edir. Bu da Azərbaycan dövlətinin şəffaf, demokratik seçkilərin keçirilməsi üçün ortaya qoyduğu siyasi iradənin ən bariz nümunələrindən biridir. Seçkilər mətbuat üçün açıq olmalıdır, KİV bu prosesdə önəmli rol oynamalıdır. Çünki istənilən ölkədə əhəmiyyətli tədbirin ictimaiyyətə çatdırılmasında ən önəmli rol mətbuatın üzərinə düşür. MSK da mətbuatla birgə işləməyə hər zaman xüsusi diqqət göstərir. Çalışmışıq ki, yerli mətbuatla yanaşı, beynəlxalq KİV nümayəndələri də bizim tədbirlərin işıqlandırılmasında fəal iştirak etsinlər.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, 2019-cu il Azərbaycanda köklü islahatlar ili kimi yadda qalacaq. O, ölkəmizdə Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq islahatların həyata keçirildiyini deyib. Qeyd edib ki, son islahatlar kəmiyyət və keyfiyyət baxımından əvvəlki illərdən xeyli fərqlənir. İslahatlar o qədər genişmiqyaslıdır ki, cəmiyyətin bütün institutlarına öz təsirini göstərəcək.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, fevralın 9-da keçiriləcək parlament seçkiləri daha çevik, peşəkar deputat korpusunun formalaşmasına yönəlib. Parlament seçkiləri taleyüklü proses olduğu üçün bütün siyasi partiyalar, vətəndaş cəmiyyəti fəallaşır və media da bunun tərkib hissəsidir. Seçkiqabağı təşviqat aparmaq üçün 40-a yaxın KİV-in qeydiyyatdan keçdiyini diqqətə çatdıran Səadət Yusifova seçkilər dövründə medianın üzərinə böyük yük düşdüyünü bildirib. O əlavə edib ki, media nümayəndələri prosesi obyektiv işıqlandırmalı və bütün namizədlər üçün bərabər şərait yaratmalıdır. “İnanırıq ki, bu parlament seçkiləri Azərbaycanda seçki təcrübəsinin və media ənənələrinin inkişafına öz töhfəsi ilə yadda qalacaq” deyə Prezident Administrasiyasının rəsmisi qeyd edib.

Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes bildirib ki, seçkilərin azad və demokratik keçirilməsində mətbuat mühüm rol oynayır. Avropa Şurası seçkilərin işıqlandırılması ilə bağlı üzv ölkələrə tövsiyələr verib. Bu tövsiyələr əsasən medianın rolu ilə bağlıdır. İstər seçkilərdən əvvəl, istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra media bu prosesdə fəal iştirak etməlidir.

Seçki dövründə mühüm məsələlərdən birinin də gender bərabərliyi olduğunu vurğulayan Zoltan Hernyes bildirib ki, gender bərabərliyi həmişə müzakirə mövzusu olub. Gender bərabərliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov deyib ki, seçki prosesində medianın rolu qanunvericiliklə tənzimlənir. O, seçkiqabağı təşviqat zamanı televiziya və radio kanallarının əməl etməli olduğu məsələlərdən danışıb. Qeyd edib ki, Azərbaycanda özəl televiziya və radio kanalları təşviqatda iştirak edə bilməz. İctimai Televiziya seçkiqabağı təşviqatı ödənişli və ödənişsiz yolla həyata keçirir. Ödənişli efir vaxtı pulsuz efir vaxtından iki dəfə çox olmalıdır. Bəzən qiymətlərin yüksək olduğu iddia edilir. İctimai Televiziya tərəfindən müəyyən edilən ödənişli efir vaxtının bir saniyəsinin minimum 22 manat, maksimum 65 manat olması normal qiymətdir və mövcud reklam şərtlərinə uyğun hesablanıb.

Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, şura səsvermə günü öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Qurumun “qaynar xətt”i fəaliyyət göstərəcək. “Qaynar xətt”ə daxil olan məlumatlar əvvəlcə Mərkəzi Seçki Komissiyasına ötürüləcək. Əvvəlki seçkilərdə “qaynar xətt”ə daxil olan problemlər həllini tapıb, bu seçkilərdə də həllini tapacağına inanırıq. Mətbuat Şurasının üzvləri bölgələrdə də seçkinin monitorinqində iştirak edəcəklər.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov “Seçkinin mediada işıqlandırılması: Azərbaycan qanunvericiliyi və təcrübəsi” mövzusunda məruzə ilə çıxış edib. Tədbir çərçivəsində “Seçkinin mediada işıqlandırılmasına dair Avropa Şurası standartları”, “Seçkinin mediada işıqlandırılmasına dair Azərbaycan qanunvericiliyi və təcrübəsi” və “Seçkinin mediada işıqlandırılması gender bərabərliyi kontekstində” mövzularında çıxışlar olub.

İnformasiya sessiyası müzakirələrlə davam edib.

# Bu gündən seçkilərin təşviqat mərhələsi başlayır

Əvvəli 1-ci səh.

## Seçkidə 20 siyasi partiya iştirak edir

Altıncı çağırış Milli Məclisə seçkilərin təşviqat mərhələsi bu gündən başlayır. Seçkilərə 23 gün qalmış başlayan seçkiqabağı təşviqat 8 fevral saat 8:00-a qədər davam edəcək. Bu məqsədlə Mərkəzi Seçki Komissiyası tərəfindən “Sərbəst toplaşmaq azadlığı haqqında” qanuna uyğun olaraq şəhər və rayonlarda 118 seçki dairəsi üzrə 128 açıq və 128 qapalı, cəmi 256 yer müəyyən edilib.

Bu seçkilərdə də seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına bir neçə KİV-də ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılıb. Bunlar “Azərbaycan”, “Xalq qəzeti”, “Bakinski raboçi” qəzetləri və İctimai Televiziya və Radio Yayımları Şirkətidir. Bununla yanaşı, ödənişli seçkiqabağı təşviqata qoşulması ilə bağlı MSK-ya 30 xəbər agentliyi, 9 qəzet və 1 televiziya müraciət edib.

Yanvarın 15-nə olan məlumata görə, 2431 nəfər namizədlik üçün müraciət edib. Onlardan 2358 nəfərin namizədliyinin irəli sürülməsi təsdiq olunub. 2247 nəfər imza vərəqəsi alıb. 1774 nəfər imza vərəqəsini qaytarıb və hələ ki 1534 nəfər qeydə alınıb.

Seçkidə iştirak edən partiyaların sayı isə 20-dir. Bunlar Yeni Azərbaycan, Ümid, Vətəndaş Həmrəyliyi, Böyük Quruluş, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Milli Dirçəliş Hərəkatı, Azərbaycan Milli İstiqlal, Azərbaycan Demokrat, Böyük Azərbaycan, Vahid Azərbaycan, Ana Vətən, Azərbaycan Təkamül, Müsavat, Azərbaycan Sosial Rifah, Vəhdət, Demokratik İslahatlar, Azərbaycan Liberal Demokrat, Azərbaycan Demokratik Maarifçilik, Müasir Müsavat, Vətəndaş və İnkişaf partiyalarıdır.

Demokratik dövlətin siyasi-ictimai həyatındakı mühüm hadisələrdən biri seçkilərdir. Seçkilərin azad və ədalətli keçirilməsi isə mütərəqqi inkişafın əsasını təşkil etməklə yanaşı, seçkili orqanların xalq tərəfindən formalaşdırılmasının əyani ifadəsidir. Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur. İndiyədək ölkəmizdə demokratik meyarlar çərçivəsində 6 prezident, 5 parlament və 5 bələdiyyə seçkisi keçirilib. Sözsüz ki, qarşıdan gələn parlament seçkiləri də respublikamızda demokratiyanın növbəti təntənəsi kimi tarixə düşəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Ötən ilin sosial-iqtisadi yekunları müzakirə olunub

Yanvarın 16-da İqtisadiyyat Nazirliyinin 2019-cu ilin yekunları ilə bağlı mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Mikayıl Cabbarov ötən ilin ölkə iqtisadiyyatında islahatların davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, əhalinin rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsi istiqamətində genişmiqyaslı tədbirlərin görülməsi ilə müşayiət olunduğunu deyib. Bildirib ki, dövlət başçısının rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft özəl sektorun təşviqi və qeyri-neft ixracının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində çoxşaxəli islahatlar həyata keçirilib.





2019-cu ildə əldə edilmiş iqtisadi uğurları diqqətə çatdıran nazir ümumilikdə iqtisadi artımın müsbət dinamikaya malik olduğunu qeyd edib. Bildirilib ki, ilkin qiymətləndirməyə görə, 2019-cu ildə ÜDM-in real artımı 2,2 faiz, qeyri-neft sektorunda isə 3,5 faiz təşkil edib. Qeyri-neft sektorunda sənaye istehsalı 13,9 faiz artıb, qeyri-neft ixracının həcmi 1,9 milyard ABŞ dollarını ötüb. Ötən il qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların real artım tempi 3,5 faiz təşkil edib. Qeyri-neft sektoruna investisiyaların cəmi investisiyalarda xüsusi çəkisi 2018-ci ildəki 65,2 faizdən 2019-cu ildə 69,7 faizə yüksəlib.

Bununla yanaşı, ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm addımlar atılıb. Nəticədə əhalinin gəlirlərinin nominal artım tempi 7,4 faiz təşkil edərək orta illik inflyasiyanı (2,6 faiz) üstələyib. Orta aylıq əməkhaqqının artım tempi 16,4 faiz olmaqla, əhalinin gəlirlərinin artım tempini əhəmiyyətli üstələyib ki, bu da həm əməkhaqların artırılması, həm də əmək bazarının leqallaşması prosesləri ilə bağlıdır.

Nazir qeyd edib ki, vergi sahəsində aparılan islahatlar nəticəsində “kölgə iqtisadiyyatı”nın həcmi azalmaqdadır. 2019-cu ildə vergi daxilolmaları tarixi maksimuma - 7 milyard 672,6 milyon manata çatıb. Son 2 ildə dövlət büdcəsinə olan artıq ödəmələr 721,4 milyon manat həcmində azaldılıb.

Diqqətə çatdırılıb ki, ötən il qeyri-neft sektorundan vergi daxilolmaları üzrə proqnoz 109,1 faiz yerinə yetirilib ki, bu da indiyədək əldə edilmiş ən yüksək göstəricidir. Qeyri-neft sektorundan vergi daxilolmaları 458,3 milyon manat və ya 9,1 faiz artaraq 5 milyard 432,3 milyon manata çatıb. Bu sektordan daxilolmaların həcminin cəmi vergi daxilolmalarında xüsusi çəkisi 70,8 faiz təşkil edib, özəl sektorun qeyri-neft sektoru üzrə vergi daxilolmalarında xüsusi çəkisi isə 76,4 faiz olub. Qeyri-neft sektorunda könüllü vergi daxilolmalarının bu sektor üzrə daxilolmalarda xüsusi çəkisi 91,1 faizə çatıb. Qeyri-neft sektorundan daxilolmalar ƏDV üzrə 16,4 faiz, aksiz vergisi üzrə 4,7 dəfə, mənfəət vergisi üzrə isə 12,6 faiz artıb.

Nazir bildirib ki, regionlar üzrə daxilolmalar 11,9 faiz artaraq 795,4 milyon manat olub. Şəhər və rayonlar üzrə dövlət büdcəsinə müvafiq vergilərdən büdcə ilinin sonuna artıq daxil olan vəsaitin 50 faizinin regionların sərəncamına verilməsi onların dotasiyalardan asılılığının azalmasına və yerlərdə vergitutma bazasının genişləndirilməsinə əlavə fiskal stimul yaradır.

M.Cabbarov vurğulayıb ki, bu dinamika fiziki şəxslərə gəlir vergisi üzrə güzəştlərin verilməsi şəraitində formalaşıb. Əmək bazarının leqallaşdırılması məqsədilə ötən il qeyri-neft özəl sektorda çalışan işçilərin 8 min manatadək olan əməkhaqları gəlir vergisindən azad olunub. Nəticədə 300 milyon manatdan çox vəsait işləyənlərin sərəncamında qalıb. Bu islahatın səmərəsi əmək müqavilələrinin dinamikasında aydın müşahidə olunub. 2019-cu ildə qeyri-dövlət sektorunda bağlanmış əmək müqavilələrinin sayı 99 minə yaxın (18,3 faiz) artıb. Qeyd olunan islahat sayəsində həmçinin əməkhaqların artırılması nəticəsində əməkhaqqı fondunun artması müşahidə edilib.

İqtisadiyyat naziri diqqətə çatdırıb ki, əmək münasibətləri sahəsində həyata keçirilən islahatlar məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta üzrə daxilolmalara müsbət təsir edib. 2019-cu ildə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 26 faiz artaraq 2 milyard 931,3 milyon manata, işsizlikdən sığorta üzrə daxilolmalar isə 39,1 faiz artaraq 105 milyon manata çatıb. Daxilolmaların artımı pensiya sisteminin maliyyə dayanıqlılığını gücləndirib və büdcədən transfertin DSMF-in gəlirlərində payının 2017-ci ildəki 38,1 faizdən 2020-ci ildə 29,6 faizədək enməsi gözlənilir.

Nazir qeyd edib ki, 2020-ci il yanvarın 1-nə cəmi aktiv vergiödəyicilərinin sayı 12,3 faiz artaraq 496 mindən, o cümlədən aktiv ƏDV ödəyicilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,5 faiz artaraq 24,8 mindən çox olub.

Qeyri-neft sektorunda dövriyyələrin şəffaflaşdırılması məsələsinə toxunan M.Cabbarov deyib ki, 2019-cu ilin 11 ayı ərzində bu sektor üzrə artım 12,4 faiz təşkil edib. Bu zaman ayrı-ayrı sektorlarda daha dinamik göstəricilər müşahidə olunub. Belə ki, istehsal sektorunda 21 faiz, pərakəndə ticarət sektorunda 37,6 faiz, ictimai iaşədə 24,2 faiz, aqrar sektorda 19,4 faiz artım qeydə alınıb.

Qeyd olunub ki, aksizli malların istehsalı üzərində nəzarətin artırılması, habelə yeni müəssisələrin işə salınması nəticəsində alkoqollu içkilərin istehsalı sahəsində 39,3 faiz, tütün məmulatlarının istehsalı sahəsində 15,4 dəfə dövriyyələrin artımı qeydə alınıb. Ölkədə nağdsız ödəmələrin genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq, plastik kartlarla ölkə daxilində aparılan əməliyyatlarda nağdsız ödəmələrin xüsusi çəkisi 2019-cu ilin 11 ayı ərzində əvvəlki illə müqayisədə 3,7 faiz artıb.

M.Cabbarov 2020-ci il və ortamüddətli perspektivdə ölkə iqtisadiyyatının qarşısında duran hədəflər barədə də məlumat verib. Bildirib ki, qarşıda duran strateji vəzifə ortamüddətli dövrdə iqtisadi artımın dünya üzrə orta iqtisadi artımdan geri qalmamasını təmin etmək, uzunmüddətli dövrdə isə iqtisadi artım tempinin dünya üzrə artımı üstələməsinə nail olmaqdır. Bunun üçün hökumət qarşısında bir sıra hədəflər müəyyən edilib. Bunlar qeyri-neft əmtəə və xidmət ixracının əhəmiyyətli dərəcədə genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və “kölgə iqtisadiyyatı”nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir.

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

# *Vilayət EYVAZOV:* “Azərbaycanda sabitliyin qorunmasında Daxili Qoşunların xüsusi xidmətləri var”

Yanvarın 16-da Daxili İşlər Nazirliyində (DİN) Daxili Qoşunların 2019-cu ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni giriş sözü ilə açan Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov dövlət başçısının daxili işlər orqanlarına, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, kazarma-məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir qoşunların daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin və təhlükəsizliyin təminində, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə geniş məruzə ilə çıxış edib. Komandan ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

Müşavirəyə yekun vuran Daxili İşlər naziri V.Eyvazov şəxsi heyətin xidməti fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

Hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə və xalqa sədaqət ruhunda tərbiyə edilmələrinin, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların istənilən əmr və göstərişlərin icrasına hər zaman hazır olmalarını tələb edən nazir əmin olduğunu bildirib ki, Daxili Qoşunların hərbi qulluqçuları qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklər.

# Dərin islahatlar sürətli inkişaf dövrünə uğurlu keçidi təmin edir...

Əvvəli 1-ci səh.

Bütün bunlar isə Azərbaycanın daha güclü və qüdrətli dövlətə çevrilməsinə real zəmin yaradır, ölkəmizin dünya birliyində mövqeyini getdikcə daha da möhkəmləndirir.

## Qarşıdakı hədəflər, reallaşacaq layihələr

Göründüyü kimi, bir ildə sosial-iqtisadi sahədə əsaslı kəmiyyət və keyfiyyət dəyişikliyi var. Kifayət qədər artımlar yaranıb. Bütün bunlar həyata keçirilən məqsədyönlü siyasətin bəhrəsidir desək, yanılmarıq.

Ancaq buna baxmayaraq Prezident icrasına başlanmış layihələrin, həm də yeni başlanacaq layihələrin uğurla yerinə yetirilməsi üçün bütün dövlət qurumlarına səsləndi ki, hər kəs öz vəzifəsinin öhdəsindən layiqincə gəlməli və görülən işlərə töhfə verməlidir. Yəni qarşıya qoyulan bütün tapşırıqlar vaxtında icra olunmalıdır.

Beləliklə, Prezident aidiyyəti qurumlara tapşırıq verdi - ilk növbədə başlanmış layihələr başa çatmalıdır, gizli iqtisadiyyatdan çıxmaqla bağlı bütün qurumlar fəal işləməlidir, dövlət qurumları arasında çox ciddi koordinasiya işləri aparılmalıdır, kiçik və orta biznesə dəstək yüksək səviyyədə olmalıdır, kənd təsərrüfatı məhsullarının emalına böyük diqqət göstərilməlidir və bu il elektron kənd təsərrüfatının tam tətbiqi başa çatdırılmalıdır.

Onu da vurğulayaq ki, ötən il olduğu kimi, bu il də dövlət tərəfindən mühüm sosial-iqtisadi layihələrin reallaşdırılması nəzərdə tutulur:

- “Cənub qaz dəhlizi” bu il istismara veriləcək;
- Külək və Günəş elektrik stansiyaları tikiləcək;
- Şəhid ailələri və Qarabağ əlillərinə 1500 mənzil veriləcək;
- 400-dən çox subartezian quyusu qazılacaq;
- Magistral, şəhərlərarası, kəndlərarası və qəsəbədaxili yollar çəkiləcək;
- Gəncə-Gürcüstan sərhədi avtomobil yolunun 4 zolağa genişləndirilməsi layihəsi yekunlaşdırılacaq.

## Real uğurlu göstəricilər

Görünən odur ki, Azərbaycan iqtisadi artım tempini getdikcə sürətləndirir. Qüdrətlənən Azərbaycan dövləti əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addmlar atır. Hər ötən ildə demək olar ki, həm iqtisadi, həm sosial göstəricilər yüksəlir. Bunu statistik rəqəmlərə nəzər yetirdikdə də aydın şəkildə görə bilərik:

- Əgər 2018-ci ildə valyuta ehtiyatları 45 milyard dollar idisə, 2019-cu ildə bu rəqəm 51 milyard dollara yüksəlib;
- 2018-ci ildə ÜDM 1,4 faiz, qeyri-neft sektorunun inkişafı 1,8 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 9,1 faiz, kənd təsərrüfatında 4,6 faiz artım olduğu halda 2019-cu ildə ÜDM 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz, kənd təsərrüfatı 7 faiz artıb. Bir ildə ÜDM-də 0,8, qeyri-neft sektorunun inkişafında 1,7, sənaye istehsalında 4,9, kənd təsərrüfatında isə 2,4 faizlik artım olub;
- 2018-ci ildə büdcə xərclərinin 31,7 faizi sosialyönmlü xərclərin payına düşürdüsə, 2019-cu ildə bu rəqəm 33,4 faiz oldu;
- 2018-ci ildə Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edirdisə, 2019-cu ildə bu rəqəm 17 faizə endi;
- 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə 628 mənzil verilmişdisə, 2019-cu ildə 934 mənzil təqdim edildi. Yəni 1 ilə əvvəlkindən 306 artıq mənzil;
- 2018-ci ildə müharibə əlilləri və şəhid ailələrinə 265 minik avtomobili verilmişdisə, 2019-cu ildə bu rəqəm 600-ə yüksəldi. Bir ilə 335 ədəd çox avtomobil;
- 2018-ci ildə 3097 şəhidin 4190 vərəsəsinə 11 min manat birdəfəlik ödəmələr verilmişdisə, 2019-cu ildə 12 min şəhidin 18 min vərəsəsinə 11 min manat tamamilə ödənildi;
- 2018-ci ildə ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəldiyi halda, 2019-cu ildə bu rəqəm 3 milyona yüksəldi. 2018-ci ildə turistlər ölkəmizdə 2 milyard dollar, 2019-cu ildə isə 4,3 milyard dollar pul xərcləyiblər. Bu da 2,3 milyard manat artıq vəsait edir.

Dövlət başçısının Nazirlər Kabineti və digər dövlət strukturları qarşısında qoyduğu tələblər, icra ediləcək layihələr onu deməyə əsas verir ki, 2020-ci il Azərbaycan üçün uğurlu illərdən biri olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***






# Gənclik






● Elmi-intellektual potensial



# Ötən il yüksək nəticələrlə başa vuruldu

**Son illər Azərbaycanda yüksək səviyyədə həyata keçirilən gənclər siyasətinin nəticələri özünü gənc nəslin müxtəlif sahələrdəki aktiv fəaliyyətləri, həmçinin əldə olunan davamlı uğurları ilə büruzə verməkdədir. Prezident İlham Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi siyasi xəttin əsas məqamlarını innovativ fəaliyyətə istiqamətləndirən davamlı proqramların reallaşdırılması və Azərbaycanın gələcək inkişafı naminə hədəflərimizin gerçəkləşdirilməsi üçün aparıcı qüvvəyə çevrilə bilən gənc nəslin yetişdirilməsi təşkil edir.**

Bütün tərəqqi etmiş cəmiyyətlərdə intellektual təfəkkürə malik, elmi biliklərə meyilli olan insanların mütəmadi dəstəklənməsi həmişə öncül yer tutur. Bu da ölkə rəhbərinin indiyə qədər Azərbaycan gənclərinin inkişafı ilə bağlı imzaladığı sərəncamlarda əksini tapır. Cəmiyyətdə intellektual potensialın səviyyəsini və kəmiyyətini yaxşı təhsil alan, elm sahəsində uğurla çalışaraq məhsuldar nəticələr əldə edən zümrələr müəyyənləşdirirlər. Deməli, təhsildən başlayaraq elm sferasına miqrasiya elmi intellektual cəmiyyətin bərqərar olmasına ən həssas və ümdə meyarları təmin edir. Ona görə də birbirindən mütləq surətdə asılı olan təhsil və elmin qarşılıqlı əlaqəsi, həmçinin digər sahələrin tərəqqisində diktəedici xüsusiyyət daşıyan hər iki mühüm istiqamətin inkişafında paralelliyin təmin olunması Prezidentin hədəflərinin reallaşdırılmasına dəstək nöqteyi-nəzərindən olduqca mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Gənc Alim və Mütəxəssislər Şurasını təşkil edən 3000-dən artıq tələbə, magistr, doktorant və alim sayına, eləcə də bilik potensialına görə günümüzdə respublikanın ən böyük intellektual qüvvəsi hesab edilir. Azərbaycanda elmi-intellektual gəncliyin yetişdirilməsinə, həmçinin elm və təhsilin inteqrasiya prosesinə dəstək vermək, ölkədaxili və xarici coğrafiyada elmimizi populyarlaşdırmaq, milli və mənəvi dəyərlərimizə sadiq, vətənpərvər gənc nəslin formalaşdırılmasını təmin etmək kimi fəaliyyətlərin koordinasiyasını həyata keçirən bu ictimai birlik özünün illik fəaliyyət planında dövlət başçısının gənclər siyasətilə bağlı müəyyənləşdirdiyi müvafiq strategiyaları həmişə əsas reper hesab edir.



Gənclərin intellektual fəaliyyətinin dəstəklənməsi və elmə həvəsləndirilməsi ilə əlaqədar ötən il AMEA-nın müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələrinin regionlarda təbliği və təşviqi ilə bağlı işlərimiz öz əksini ümumtəhsil ocaqlarında keçirilən "Bugünün şagirdi və sabahın alimi" adlı əyləncəli proqramlarda, "Ən son elmi nailiyyətlərimiz" adli silsilə elmi seminarlarda, şəhər və rayon məktəblərində təsis etdiyimiz "Kiçik Akademiya"larla sıx əlaqələrimizdə tapmışdır. Elmin təbliği istiqamətində ərsəyə gətirilən ən uğurlu layihələrdən hesab edilən, eləcə də ümumrespublika miqyasında gənc alim və mütəxəssislər, xüsusən doktorant, dissertant, magistr və tələbələr üçün paytaxtda təşkil olunan "Gənc bioloqların qış məktəbi - 2019" və Qəbələdə keçirilən "Gənc arxeoloqların yay məktəbi - 2019" tədbirlərini ötən hesabatımızın ən əhəmiyyətli məqamları kimi qeyd etmək olar.

Elmlə təhsilin vəhdətinin yaradılması siyasətinə adekvat olaraq AMEA-nın təşkilat və müəssisələrində aparılan tədqiqatları ictimailəşdirmək, həmçinin akademiyanın müvafiq institutlarında təhsil alan magistrantları elmə həvəsləndirmək üçün AMEA Rəyasət Heyətinin Elm və Təhsil Baş İdarəsi ilə birgə "Gənc qadınlar elmdə" və "Magistr - 2019" müsabiqəsi uğurla təşkil edilmiş, qaliblər yüksək pul mükafatlarına layiq görülmüş və müvafiq nominasiyalı diplomlarla təltif olunmuşlar.

AMEA-nın Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə ən uğurlu əməkdaşlığının nümunəsi olan "Sabahın alimləri" VIII Respublika müsabiqəsi çərçivəsində gələcəyin alimi olacaq istedadlı məktəblilərin layihələrinin hazırlanmasında gənc mütəxəssislərimizin də böyük rolu var. Müsabiqədə qalib gələn əksər layihələr məhz AMEA-nın gənc alimlərinin rəhbərliyi altında yerinə yetirilmişdir.

Bundan başqa, şura tərəfindən Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunan "Ulu Öndər Heydər Əliyev: keçmişimizin memarı, gələcəyimizin qarantı" mövzusunda elmi-praktik konfrans keçirilib. Mövzu ilə əlaqədar dinlənilən müxtəlif məruzələrdə Azərbaycan elminin və təhsilinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu haqqında bir çox məqamlara toxunulmuşdur.

Gənc alimlərin potensialından səmərəli istifadə etmək, onların xarici ölkələrə ezamiyyətlərinə, eləcə də elmi-tədqiqat işlərinin nəşrinə dəstək vermək məqsədilə hesabat ilində müvafiq nazirliklər, fondlar və digər ictimai təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir.

AMEA Gənc Alim və Mütəxəssislər Şurası Abşeron, Sumqayıt, Binəqədi rayonlarının YAP rayon təşkilatları ilə müştərək əlaqələrini möhkəmləndirmiş, milli-mənəvi dəyərlərimizə və digər hadisələrə dair müzakirələr, konfranslar təşkil edilmişdir.

Elmi-intellektual potensialı ilə xüsusi fərqlənən gənclərimizin geniş ictimaiyyətə tanıdılması məqsədilə ötən il "İlin gənc alimi", "İlin tədqiqat layihəsi", "Ən yaxşı elmi məruzə" kimi müsabiqələr də ərsəyə gətirilmişdir.

Şura tərəfindən təsis edilən, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən dövri nəşrlər sırasında gənc tədqiqatçıların yeganə elmi dərgisi - "Gənc tədqiqatçı" adlı jurnalın ötənilki iki nömrəsi də uğurla çap etdirilmişdir.

Gənc mütəxəssislərimizin asudə vaxtlarının səmərəli təşkilini təmin etmək məqsədilə Ulu Öndər Heydər Əliyevin 96-cı ildönümünə həsr olunmuş "AMEA gənc alim və mütəxəssislərinin V institutlararası futbol çempionatı" adlı idman yarışı ötən il də uğurla davam etdirilmişdir.

Azərbaycan xalqının şanlı müstəqillik tarixinin əbədiləşdirilməsi, onun əldə olunmasında baş verən proseslərin elmi materiallar və faktlar əsasında təhlili ilə əlaqədar 20 Yanvar faciəsinin 29-cu ildönümünə, 1918-ci il Azərbaycanlıların soyqırımının 100 illiyinə və sair dövlət əhəmiyyətli hadisələrə dair elmi-praktik konfranslar keçirilmişdir.

2019-cu il ərzində təmsil etdiyimiz Şuranın üzvlərinin həyata keçirdiyi elmi və ictimai fəaliyyət istər ən ali səviyyələrdə, istərsə də ayrı-ayrı təşkilatlar, o cümlədən AMEA-ya bağlı müəssisələr tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, elmi-ictimai fəaliyyətləri ilə seçilən gənclərimiz hesabat ilində "Gənclər üçün Prezident mükafati", "İlin gənci" kimi mükafatlara layiq görülüblər. Bundan başqa, AMEA Rəyasət Heyətinin və müvafiq bölmələrin fəxri fərmanlarına layiq görülən gənclərimizin sayı da ondan artıqdır.

AMEA Gənc Alim və Mütəxəssislər Şurası artıq növbəti illə bağlı fəaliyyət planını formalaşdırmağa çalışır. Bu ildən başlayaraq şura Azərbaycan elmi və təhsilli, həmçinin fəal intellektli gənc nəslin inkişafı üçün fundamental dəyərlərimiz baxımından prioritet hesab olunan ənənəvi fəaliyyətləri davam etdirməklə bərabər, innovativ ideyaların həyata keçirilməsi istiqamətində yeni qeyri-ənənəvi layihələrin gerçəkləşdirilməsini planlaşdırır. Həmişə olduğu kimi, 2020-ci ildə də elmi-ictimai fəaliyyətimizin əsas hədəfləri Prezident İlham Əliyevin gənclər siyasətinin ümdə məqsədləri ilə uyğunlaşdırılacaqdır.

***Famin SALMANOV,***
***AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent***

● İnsan kapitalı

# Dövlət-din münasibətlərində multikulturalizm vacib amildir

**Mədəniyyətlərin qovuşması olduqca böyük bəhrə verir. Bununla xalqlar dostlaşır, mədəniyyətlər bir-birini inkar etmir. Azərbaycanda mədəniyyətlərarası dialoq hər zaman mövcud olub. O da danılmaz faktdır ki, Azərbaycanda mədəniyyətlərarası dialoqun multikulturalizmə təsiri əvəzsizdir.**

Hazırda mədəniyyətlər və dinlər arasındakı yaxınlaşmanın dilə gətirilərək dialoqların qurulduğu, bunun nəticəsində mədəni-dini fərqliliklər üçün tolerantlığın axtarıldığı və sülh şəraitində birgəyaşayış naminə maksimum səylərin göstərildiyi bir zamanda yaşayırıq. Məhz buna görə də mədəniyyətlərarası dialoq mühitində digər mədəniyyətlərin xüsusiyyətlərinin öyrənilməsi vacibdir. Mədəniyyətlərarası dialoqda müvəffəqiyyətin təməli həmçinin insanların öncə öz mədəniyyətlərinə həssaslıq göstərməsinə əsaslanır. Mədəniyyətlərin qovuşması zamanı xalqların nümayəndələri müsbət dəyərləri, üstün cəhətləri qəbul etməklə, əksər hallarda stereotiplərdən azad olurlar. Burada fərqli dinlərdən olanlar yaşadıqları eyni ictimai mühitdə plüralizm anlayışı içində həyatın ortaq istiqamətlərini, sülh, insan hüquqları kimi cəmiyyətin ciddi məsələlərini birlikdə həll etməyin yollarını axtara bilirlər.

Azərbaycanda kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi dəyərlərini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Azərbaycan bir ictimai məkan kimi mədəniyyətlər və dinlərarası münasibətlərin durumu, etnik-milli-bəşəri müstəvilərin ahəngdar mövcudluğu baxımından dünyada örnəkdir.

Çoxmədəniyyətlilik, yəni multikulturalizm Azərbaycanda həyat tərzinə çevrilib. Onun dövlət ideologiyasına, siyasətin prioritetlərindən birinə çevrilməsindən xeyli əvvəl də ölkəmizdə çoxmədəniyyətlilik mövcud olmuşdur. Azərbaycan dövlət-din münasibətlərinin tənzimlənməsi və dini dözümlülük baxımından zəngin ənənəyə və qədim təcrübəyə malikdir. Bu münasibətlər müxtəlif mərhələlərdən və tarixən ağır sınaqlardan keçərək özünəməxsus xüsusiyyətlər qazanmışdır.



Zaman-zaman təqib olunaraq repressiyalara məruz qalsa da, xalqımız daim öz milli-mənəvi dəyərlərinə sadiqlik nümayiş etdirmiş, digər din və mədəniyyətlərə tolerant münasibətilə seçilmişdir. Bu gün də Azərbaycan dövləti və xalqı bu zəngin ənənəni yaşadır, onun gələcək nəsillərə çatdırılması yolunda öz səylərini əsirgəmir. Azərbaycan sivil bir dövlət olaraq həmişə dini ekstremizmə qarşı çıxmış, dini dözümsüzlüyü pisləmiş və bu sahədə başqa ölkələrlə əməkdaşlıq etmişdir. Əlverişli coğrafi şərait, zəngin təbii sərvətlər, mərkəzi ticarət yollarının üzərində və fərqli mədəniyyətlərin qovşağında yerləşməsi, etnik və dini müxtəliflik, təsərrüfat və mədəni həyatın yüksələn xətlə inkişaf etməsi, eləcə də bir sıra digər vacib amillər Azərbaycanı orta əsrlərdə də müxtəlif xalqlar və mədəniyyətlərin daşıyıcıları üçün cazibədar etmişdir. Azərbaycanın zaman-zaman böyük köçkün axınına məruz qalmasına baxmayaraq, müxtəlif xalqlar və etnik qruplar bu torpaqlarda həmişə sülh şəraitində bir yerdə dinc, yanaşı yaşamışlar.

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə dini etiqad azadlığının təmin olunmasına, icmaların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və tolerantlıq ənənələrinin güclənməsinə diqqət artırıldı. Azərbaycan hökuməti bütün dinlərin nümayəndələrinə dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün bərabər imkanlar yaratdı, onların fəaliyyətinə əsassız müdaxilələrin qarşısını aldı. Ölkənin iqtisadi imkanları genişləndikcə müxtəlif din və məzhəblərin nümayəndələrinə qayğı və diqqət artırıldı.

Hazırda qloballaşma prosesinin sürətləndiyi, xarici təsirlərin artdığı mürəkkəb beynəlxalq şəraitdə dinlərarası qarşılıqlı anlaşma, hörmət prinsiplərinin qorunub saxlanması və dindən şəxsi məqsədlər naminə istifadənin qarşısının alınması üçün dini maarifləndirmənin aparılması xüsusi əhəmiyyət kəsb edir.

İndiyədək dövlət-din münasibətləri sahəsində fəaliyyət göstərən strukturların formalaşdırılması və onların fəaliyyətinin koordinasiya olunması istiqamətində əhəmiyyətli qərarlar qəbul olunub. Bu baxımdan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasını xüsusi qeyd etməliyik.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən böyük uzaqgörənlik və uğurla davam etdirilir. Ümummilli Liderin apardığı uğurlu siyasət nəticəsində qorunub saxlanılmış tolerantlıq ənənələri, bərpa edilmiş tarixi-dini, memarlıq abidələrimiz, xalqımızın zəngin incəsənəti dəyərli nümunələrimizdir. Heç şübhə yoxdur ki, xalqımız bunun həm sahibi, həm də qoruyucusudur. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsinə və sabitliyin qorunmasına Qafqaz Müsəlmanları İdarəsi də öz töhfəsini verir. Bu qurumla Azərbaycanda fəaliyyət göstərən digər dini icmaların arasında münasibətlər qarşılıqlı anlaşma və etimada söykənir. Onlar ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi işində fəal iştirak edirlər. Münasibətlərin yüksək səviyyədə olması baxımından Azərbaycan bu gün bir çox dünya ölkələri üçün örnək rolunu oynayır.

***Həmid ZEYNALLI,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi***

● Vətənin keşiyində

# Doğma yurdu sevənlər

**Ana Kürün sahilində bir şəhər qərar tutub. O, Nur şəhəri adı qazanıb öz şərəfli missiyası ilə. Bu, yurdumuzun qədim yaşayış məskənlərindən olan Mingəçevirdir, öz gözəlliyi ilə müasir Avropa şəhərləri ilə uğurlu rəqabət aparır.**

Mingəçevirin şanlı-şöhrətli bugünü bir tərəfdən dövlətin məqsədyönlü şəkildə bu məkana ünvanlanan qayğı və diqqətinin məntiqi nəticəsidirsə, digər tərəfdən isə vətən torpağını canından artıq sevən, doğma yurdun hər qarışını cənnətə döndərmək üçün fədakarlıq göstərən oğulların fəal vətəndaş mövqeyidir.

Mingəçevir həm də nümunəvi təhsil ocaqları ilə tanınır. Bu sırada Mingəçevir Turizm Kollecinin özünəməxsus yeri var. Əsas qayəsi ölkə iqtisadiyyatının yeni sahəsi olan turizm sektoru üçün bacarıqlı, mədəni, müasir dünyagörüşlü kadrlar hazırlamaq olsa da, burada vətənpərvərlik tərbiyəsinə böyük önəm verilir. Sistemli şəkildə həyata keçirilən mədəni-kütləvi tədbirlərin məqsədi yüksək intellektual səviyyəyə malik, vətəni canından artıq sevən, comərdliyi, şücaəti ilə düşmənə hər zaman göz dağı ola biləcək oğullar yetişdirmək, vətənə, xalqa, dövlətə sədaqətli yeni nəsil formalaşdırmaqdır. Kollecdə vətənpərvərliyi təbliğ edən guşələr, Azərbaycanın milli qəhrəmanlarına həsr edilən foto-stendlər diqqət çəkir. Bayramlarda, əlamətdar günlərdə kollec tələbələrinin iştirakı ilə vətənpərvərlik mövzusunda ədəbi-bədii kompozisiyalar nümayiş etdirmək artıq bir ənənəyə çevrilmişdir. Tələbəlik illərində formalaşan dünyagörüş, yüksək mənəvi-əxlaqi dəyərlər sonralar kollec məzunlarının



ömür yolunda etibarlı bələdçiyə çevrilir, onların cəmiyyətdə fəal vətəndaş mövqeyi tutmasını təmin edir. Məntiqi nəticə isə qürurvericidir. Vətən sevgisi ilə dolu odlu bir ürəklə hərbi xidmətə yollanan kollec məzunları vətənin keşiyində ayıq-sayıq dayanır, komandirlərin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirir, nümunəvi xidmətləri ilə fərqlənirlər.

Bu günlərdə kollecdə tələbələrlə görüşüb həmsöhbət olduq. Onların hər cümləsi vətənlə başlayıb vətənlə bitir. Turizm və onun təşkili ixtisası üzrə III kurs tələbəsi Oruc Əliyevin dedikləri:

- Kollecdə elə mənəvi-psixoloji mühit yaradılıb ki, burada təhsil almağınla fəxr edirsən. Adamlar fərqli peşələrin sahibi ola bilərlər. Vətən sevgisi, azərbaycançılıq ideyası isə hamımızı bir məqsəd uğrunda mübarizədə birləşdirir. Doğma yurdu sonsuz məhəbbətlə sevmək, bu vətənin keşiyində ayıq-sayıq dayanmaq şərəfli vətəndaşlıq borcudur. Uzun illərdir ki, Qarabağımız işğal altındadır. Biz gənclərin ürəyində düşmənə sonsuz nifrət var. Hər birimizin ali arzusu torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpa edilməsi, lazım gələrsə bunun üçün başlayacaq döyüşlərdə iştirak etmək, yağılardan şəhidlərimizin qisasını almaqdır.

Kollecin direktoru, iqtisad elmləri doktoru, professor Əyyub Əyyubovla söhbətimiz də maraqlı oldu. Əyyub müəllimin doğulub boya-başa çatdığı Ağdam bu gün Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ağdamla, Qarabağla bağlı unudulmaz xatirələr vərəqləndikcə kövrəlir. Deyir ki, biz Qarabağı gələcək nəsillərin çiyninə ağır yük kimi qoymamalıyıq.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasət bizi tezliklə Qarabağa qovuşduracaqdır. Buna hər bir ölkə vətəndaşı, eləcə də kollecin tələbə və pedaqoji kollektivi birmənalı şəkildə inanır.

Aprel döyüşləri hərb tariximizin parlaq səhifələrindən biridir. Həm də o səbəbdən ki, bu əməliyyat Azərbaycan xalqının iradəsini və gücünü bir daha ən qətiyyətli şəkildə ortaya qoydu. Aprel döyüşü iştirakçıları və şəhidləri qəlblərdə əbədilik qazandı. Mingəçevirdən olan 4 şəhid ailəsi ilə kollec arasında sıx ünsiyyət var. Tələbələr vaxtaşırı onları evlərində ziyarət edir, yaxud kollecdə təşkil olunan tədbirlərə dəvət edirlər. Kollec tələbələri Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş respublika teatr festivalında ən yaxşılardan olaraq üçüncü nəticə göstərmişlər.

Kollecin vətən sevdalı tələbələrindən xoş təəssüratlarla ayrılırıq. Sabahımızın etibarlı əllərdə olacağına ümidlər həyatımızı gözəlləşdirir, ömrümüzə məna qatır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

● Tribuna

# Gələcək gənclərlə gələcək

**Azərbaycan Respublikasının prioritetlərindən biri də uğurlu gənclər siyasətidir. Bu siyasətin əsası hələ Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuşdur. Ümummilli Lider hər zaman gənclərin təhsili və bacarıqları ilə maraqlanmış, onların xaricdə təhsil almalarına önəm vermiş, belə gəncləri diqqətdə saxlamış və onların dövlətimizin mənafeyi naminə çalışmaları üçün lazımi imkan yaratmışdır. Bu gün də Prezident İlham Əliyev gənclər siyasətini uğurla davam etdirir. Dövlət idarəçiliyində həyata keçirilən gəncləşdirmə siyasəti buna bariz nümunədir.**



Ölkəmizdə gənclərə dövlət dəstəyi ildənilə gücləndirilir, onlara diqqət və qayğı göstərilir. Müasir gəncliyimiz cəmiyyətin inkişafında ciddi addımlar atan fəal sosial təbəqəyə çevrilib.

2018-ci il prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyev söylədi ki, qarşımızdakı illərdə Azərbaycanda bütün sahələrdə, xüsusilə dövlət idarəçiliyində geniş islahatlar aparılacaq. Ötən bir il ərzində çox mühüm və ciddi islahatlar həyata keçirildi. Biz indi də uğurlu dəyişikliklərin şahidiyik.

Gənc kadrlara yüksək etimad göstərilməsi yalnız mərkəzi dövlət strukturlarında reallaşdırılmır, regionlarda da həyata keçirilir. Respublikamızda demək olar ki, əksər rayon icra hakimiyyəti başçılarının müavinləri gənclərdir. Təyinatlara baxdıqda görünür ki, yaxşı təhsil almış, fəaliyyət göstərdiyi sahədə özünü təsdiqləmiş intellektual gənclərə yüksək etimad göstərilir və onlar irəli çəkilirlər.

Dövlət qayğısı gənclərin dövlət işlərinə irəli çəkilməsi ilə məhdudlaşmır. Buna misal olaraq Gənclər Fondunun yaradılmasını, Prezidentin Gənclər mükafatının təsis edilməsini də göstərə bilərik.

Dövlət başçısının xüsusi diqqətinin nəticəsidir ki, respublikamızda son illərdə könüllülük fəaliyyəti geniş yayılmaqdadır. Cəmiyyətin əsas göstəricilərindən olan könüllülük hərəkatı dövlət idarəçilik sisteminin bütün istiqamətlərini əhatə etməklə istedadlı gənclərin inkişafı üçün əlavə imkanlardır. Bir vaxtlar universitetlərdə nəzəriyyəni öyrənən gənclərin təcrübəsi olmurdu və iş yerlərində adaptasiya problemləri yaşayırdılar. Hazırda könüllülük hərəkatına qoşulan gənclər öyrəndikləri nəzəriyyəni tətbiq edərək təcrübə qazanırlar. Əlbəttə ki, gənclərimizin gələcək fəaliyyətləri üçün bu, çox vacibdir. Ölkəmizdə yalnız ali və orta ixtisas məktəblərində 23 mindən çox könüllü var. Bu, könüllülüyün Azərbaycanda geniş vüsət almasının göstəricisidir.

Ölkəmizdə könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilən "ASAN xidmət" könüllüləri gəncliyimizə bir nümunə oldular. "ASAN xidmət"dən sonra nazirliklərdə, dövlət şirkətlərində könüllülər qrupları yaradıldı. Prezident İlham Əliyev özəl şirkətlərə də könüllüləri işə cəlb etmələrini məsləhət bilmişdir. İndi ölkəmizdə könüllülük gənclərimiz üçün böyük bir təcrübə məktəbinə çevrilib.

***Misirxan HƏSƏNOV,***
***"Azərkitab" Kitab Mərkəzinin direktoru, YAP Sabunçu rayon təşkilatı Gənclər Birliyinin sədr müavini***

# Neftçi Xoşbəxt - xoşbəxt neftçi

**Bir həmkarımız Xoşbəxt Yusifzadədən soruşmuşdu ki, özü də adı kimi xoşbəxtdirmi? O, suala beşcə kəlmə ilə cavab vermişdi: "Səksən il yaşamışamsa, deməli, xoşbəxtəm". Həmin dialoqdan artıq 10 il keçir və bu günlərdə görkəmli neftçi-geoloq, akademik Xoşbəxt Yusifzadənin 90 illiyi dövlət səviyyəsində, təntənə ilə qeyd edildi.**

Yaşadığı illərin insanın sərvəti olduğu barədə məşhur bir mahnı var. Xoşbəxt müəllim bu mahnını çox sevir. Bəlkə o səbəbdən ki, özünün də dediyi kimi, yaşadığı illəri həyatının xoşbəxtliyi sanır. Lakin söhbət təkcə taleyin ona bəxş etdiyi ömür uzunluğundan getmir, bu ömrün illərinin dəyərindən, məna yükündən gedir.

Ölkədə neft-qazla bağlı keçirilən çoxsaylı tədbirlərin iştirakçısı olan və təbii ki, onların əksəriyyətində Xoşbəxt Yusifzadəni görən, dinləyən bir jurnalist isə deyib ki, özündən heç nə xəbər almadan, yəni müsahibə götürmədən belə onun haqqında ətraflı yaza bilər. Bunu eşidən Xoşbəxt müəllimi təəccüb bürüyüb:

- Necə?..

Sonra da bir çox hallarda olduğu kimi özünəməxsus yumorla əlavə edib:

- Belə olanda deyirlər ki, qız evində toydur, oğlan evinin xəbəri yox!

Zarafat öz yerində, amma Xoşbəxt Yusifzadəni bütün Azərbaycan xalqı yaxşı tanıyır və onun haqqında təkcə neftçilərin, jurnalistlərin deyil, digər sənət sahiblərinin də kifayət qədər məlumatı var. Məsələn, orta məktəbin sonuncu sinif şagirdinə ünvanladığımız "Xoşbəxt Yusifzadə kimdir?" sualına o, bircə kəlmə ilə cavab verdi: "Fenomen".

Xoşbəxt Yusifzadə haqqında ən dəyərli sözləri isə onun 90 illik yubileyində Azərbaycanın Prezidenti İlham Əliyev dedi.

Xoşbəxt Yusifzadənin misilsiz istedad və biliyinə ən layiqli qiyməti Ulu Öndər Heydər Əliyev verib. Azərbaycan dövləti onu ən yüksək adlarla, ən ali mükafatlarla dəyərləndirib.

...Atası Stalinin repressiyalarının günahsız qurbanı olan, zəhmətkeş bir ananın qazandığı halal çörəklə böyüyən Xoşbəxt uşaqlıqdan həyatın çətinliklərinə sinə gərə-gərə irəliləyib. Pirşağıdan Kürdəxanıya piyada məktəbə gedib. Sənət seçəndə də asanından yapışmayıb - neft cəbhəsinə üz tutub. Əmək fəaliyyətinə isə açıq dənizin qoynunda, gecə-gündüz dəli-dolu Xəzərin sərt dalğalarının döyəclədiyi polad estakadalar üstündə - Neft Daşlarında başlayıb.



Həmin vaxtdan onilliklər keçib. Xoşbəxt Yusifzadə vəzifə pillələrində böyük geoloqluqdan hazırda dünyanın sayılıb-seçilən neft şirkətlərindən biri olan SOCAR-ın birinci vitse-prezidenti vəzifəsinədək yüksəlib.

Elm yollarında akademik zirvəsinə çatıb.

Sovet dönəmində "Şərəf nişanı", iki dəfə "Qırmızı Əmək Bayrağı" ordenlərini alan tanınmış geoloq Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra "İstiqlal", "Şöhrət", "Şərəf" ordenlərinə və bir sıra digər mükafatlara layiq görülüb. Bu günlərdə isə şanlı yubileyi münasibətilə "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Prezident İlham Əliyev sərəncam imzalayıb ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin yeni gəmisinə və Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 112 nömrəli tam orta məktəbə akademik Xoşbəxt Bağı oğlu Yusifzadənin adı verilsin. Bu, geoloqumuzun hələ sağlığında əfsanələşməsi demək deyilmi?

Dövlət başçısının onun haqqında dediyi sözlərin hər biri isə Xoşbəxt Yusifzadənin geoloq-alim kimi böyük istedadına və xidmətlərinə verilən layiqli qiymətdir: "Siz 20-dən çox neft-qaz yatağının kəşf edilməsində bilavasitə iştirak etmisiniz, bir çox hallarda kəşfiyyat işlərinə rəhbərlik etmisiniz. O yataqlar arasında "Azəri", "Çıraq" və "Günəşli" xüsusi yer tutur. Bu yatağın sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki Xəzərdə ən böyük neft yatağıdır. Ancaq "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil".

Geoloq Yusifzadənin proqnozu heç vaxt səhv olmayıb. Vaxtilə "Azəri-Çıraq-Günəşli"nin ehtiyatlarının 511 milyon ton olduğu müəyyən ediləndə Yusifzadə deyib ki, bu yataqlarda daha çox neft var. Zaman artıq bunu sübut edib. Çünki bu günlərdə indiyədək həmin yataqlar blokundan 500 milyon ton neftin çıxarıldığı qeydə alınıb. Hasilat isə əsrin ortalarına qədər, bəlkə hətta ondan sonra da davam edəcək.

Neçə illər bundan öncə dünyada tanınan və özünə güvənən bir xarici neft şirkəti Yusifzadəni adi geoloq sanaraq onun sözünün əksinə getmiş və "Abşeron" yatağında qazdığı kəşfiyyat quyusunun yerini düzgün seçməmişdi. Nəticədə müvəffəqiyyətsizliyə uğramış və yatağı tərk etməli olmuşdu. Sonra "Abşeron"da işləməyə başlayan digər bir xarici şirkət bu səhvi təkrar etməmiş və yataqda böyük ehtiyatlar olduğunu aşkarlamışdı. Xoşbəxt Yusifzadə hamıdan qabaq demişdi ki, bu yataqda ən azı 300 milyard kubmetr qaz ehtiyatı var.

Xoşbəxt Yusifzadə sovet dövründə də Azərbaycana, onun neft sənayesinə vicdanla xidmət edib, Vətənimiz müstəqillik qazanandan sonra da belədir. Azərbaycan neftinin gəlirləri SSRİ-nin büdcəsini zənginləşdirəndə ürəyindən bəlkə də min kərə keçib ki, bu sərvət öz xalqımızın olsun. Azərbaycanın ilk qaz yataqlarından olan "Bahar"ı 1968-ci ilin yazının ilk günündə kəşf edib. İstəyib ki, bu şərəfə onun adını "Novruz" qoysun. Lakin o zaman "Novruz" sözü yasaq edildiyindən dostları onu ehtiyatlı olmağa çağırıb. Birlikdə məsləhətləşib yatağın adını "Bahar" qoyublar.

Xoşbəxt Yusifzadə kəşflərini, tapıntılarını isbat etmək üçün bəzən mübahisələrdən, mübarizələrdən də keçməli olub. Xəzərin hüquqi statusu müəyyən ediləndə öz sözünü deyib. "Şahdəniz"in perspektivləri barədə israrlı olub. O "Şahdəniz"in ki, az sonra Azərbaycanı dünyada həm də qaz ölkəsi kimi tanıdıb...

Xoşbəxt Yusifzadəyə taleyin acı "sürpriz"ləri də az olmayıb. Bir cüt oğul itkisinin ağır dərdini yaşayıb Xoşbəxt müəllim...

Amma bütün bunlara rəğmən bu gün də işləyir, yaşayıb-yaradır, yeni kəşflərin müjdəsini paylaşır, cavanlara yol göstərir... Nikbin, müsbət auralı, xoş söz-söhbətli insandır. Odur ki, həmkarları da onun haqqında elə bu cür ovqatla danışırlar. Dəniz neftçiləri deyirlər ki, Xoşbəxt müəllim Xəzərin dibini ovcunun içi kimi görür. Qurudakı neftçilər də əsl həqiqəti zarafatyana söyləyirlər: "Xoşbəxt müəllim qədəm basdığı hər qarış torpağın ətrindən bilir ki, onun təkində neft var, ya yoxdur və əgər varsa, nə qədərdir..."

Təki bol olsun!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilib

## **Prezident İlham ƏLİYEV:** "Bu onu göstərir ki, son vaxtlar nəqliyyat sahəsində aparılmış işlər ən yüksək qiymətə layiqdir"

*Əvvəli 1-ci səh.*

Dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdəyik".

Ötən il infrastruktur layihələrinin icrası ilə bağlı uğurlu olub. Təkcə onu demək kifayətdir ki, keçən il ölkə üzrə rekord səviyyədə - 1300 kilometr avtomobil yolu çəkilib. Bunun sayəsində həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşmış, eyni zamanda magistral yolların çəkilişi davam etdirilmiş, yüzlərlə kəndin yolu abadlaşdırılmış və ya yenidən qurulmuşdur. Bununla yanaşı, yaxın qonşumuz və mühüm iqtisadi tərəfdaşımız olan Rusiya sərhədində yeni avtomobil körpüsü istifadəyə verilib. Yeni körpü Azərbaycan ilə Rusiya arasında nəqliyyat və ticarət əlaqələrinin inkişafına xidmət etməklə yanaşı, eyni zamanda "Şimal-Cənub nəqliyyat dəhlizi"nin daha effektli olmasını təmin edəcək.

Yeni və mühüm nəqliyyat marşrutu olan "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəaliyyəti üçün də mühüm işlər görülür. Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişi nəzərdə tutulub. Bu İran tərəfi ilə də razılaşdırılıb. Beləliklə, yük avtomobilləri Astara şəhərinə daxil olmadan birbaşa İran sərhədinə qədər gedəcək. Belə hal həm nəqliyyat sıxlığını aradan qaldıracaq, onun təhlükəsizliyini təmin edəcək, həm də yüklərin tez daşınmasına imkan yaradacaq.

Tarixi İpək yolunun bərpası və "Şərq-Qərb nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində ölkəmiz tərəfindən vaxtında atılan addımlar öz bəhrəsini verir. Belə ki, ötən il həmin nəqliyyat dəhlizi üzərindən yük daşınması artıb. Çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bu dəhlizə geniş imkanlar yaradır. Ən başlıcası isə həmin dəhliz üzərindən təkcə Şərq istiqamətindən yox, eyni zamanda Rusiya tərəfindən Azərbaycan üzərindən yüklərin Türkiyəyə və Avropaya daşınması da müşahidə edilir. Bir sözlə, "Şərq-Qərb nəqliyyat dəhlizi"nin işlək əmsalı ildən-ilə artır.

Cari ildə də investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük məbləğdə vəsait ayrılıb. Həmin vəsaitdən daxili avtomobil və dəmir yollarının çəkilişində istifadə edilməsi nəzərdə tutulub. Bu il Ləki-Qəbələ dəmir yolu istifadəyə veriləcək. Bununla yanaşı, Bakı-Yalama və Xudat-Şahdağ dəmir yollarının layihələndirilməsinə və inşasına başlanılacaq.

Ölkəmizdə turizm sahəsində nəhəng layihələr icra olunur. Bu üzdən Azərbaycana xaricdən gələn turistlərin sayı da ildən-ilə artır. Həmin sahədə yüksək xidməti təmin etmək üçün müasir standartlara cavab verən 100 "London taksisi" gətiriləcək. Qeyd edək ki, hazırda Azərbaycanda 1500 "London taksisi" fəaliyyət göstərir.

Dövlət başçısı bu sahədə olan mövcud nöqsan və problemlərə də toxundu. Xüsusilə taksi avtomobillərin keyfiyyət və təhlükəsizliyinin önəmini qeyd etdi. Bildirdi ki, bütün şəhərlərimizdə, ilk növbədə, böyük şəhərlərimizdə müasir taksi xidmətləri fəaliyyət göstərsin. Bunun üçün sürücülərin hazırlanmasına, onların tibbi müayinədən keçməsinə və müasir dayanacaqlarla təmin edilməsinə diqqət yetirilsin. Digər bir mühüm fakt kimi nağd hesablaşmalardan kart hesablaşmalarına keçməyin vaxtı çatdığını bildirdi. Prezident bu prosesin Bakı və böyük şəhərlərdən başlayaraq bütün ölkə ərazisində tətbiqinin vacib olduğunu da vurğuladı.

Məlumdur ki, əhali ən çox nəqliyyat vasitəsi kimi avtobuslardan istifadə edir. Buna görə də ölkə ərazisində avtomobil parkının təzələnməsi, yeni və texniki cəhətdən təhlükəsiz nəqliyyat vasitələrindən istifadə olunması vacibdir. Bu məqsədlə hər il ölkəyə 300 avtobus gətirilir. Xüsusən "MAN" tipli avtobuslardan istifadə edən sərnişinlər göstərilən xidmətdən razıdır. Həmin avtobuslarda qışda isitmə, yayda isə soyutma sistemi (kondisioner) var.

Prezident İlham Əliyev ölkə ərazisində mühüm əhəmiyyət daşıyan yeni rabitə xətlərinin çəkilməsinin də əhəmiyyətini vurğulamış və bildirmişdir: "Azərbaycan artıq Avrasiyanın önəmli nəqliyyat mərkəzlərindən birinə çevrilib, ölkəmiz mütləq rabitə, internet və fibro-optik rabitə xəttinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməlidir. Ona görə ötən ilin noyabrında Qazaxıstanda keçirilmiş təməlqoyma mərasimi xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, bu xəttin çəkilişi tezliklə təmin ediləcəkdir. Bunun uzunluğu 400 kilometrdir. Eyni zamanda, Azərbaycanda internet istifadəçilərinin sayı getdikcə artır və artıq 80 faizə çatıbdır. Keyfiyyətli interneti təmin etmək üçün əlavə vəsait də nəzərdə tutulmalıdır".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qarabağ müharibəsi əlilləri ilə görüş keçirildi

**Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev rayonun Qarabağ müharibəsi əlilləri ilə görüşmüşdür.**





RİH-in başçısı müharibə əlillərinə müraciət edərək bildirmişdir ki, siz dövlət tərəfindən hər cür sosial qayğılarla əhatə olunsanız da, müəyyən problemlərinizin həlli yerli təşkilatlardan asılıdır. Təkliflərinizi dinlədikdən sonra onların həlli üçün tədbirlər görüləcəkdir.

I qrup Qarabağ müharibəsi əlili Nizami İsmayılov evinə qaz xəttinin çəkilməsi və yolun təmiri, Ramil Abbasov ona dövlət tərəfindən nəzərdə tutulan avtomobilin verilməsi, şəhid ailələri və Qarabağ əlilləri üçün inşa edilmiş 16 mənzilli ictimai yaşayış binasının sakinləri binanın istilik sisteminin qaydaya salınması, 32 mənzilli ictimai yaşayış binasının sakinləri binanın dam örtüyünün dəyişdirilməsi, özünüməşğulluq layihəsindən yararlanmaqlarına kömək göstərilməsini xahiş etmişlər.

RİH başçısı səslənən problemlərin həlli ilə əlaqədar aidiyyəti üzrə tapşırıqlar vermiş, icrasını diqqətdə saxlayacağını bildirmişdir. O, demişdir: "Siz torpaqlarımızın müdafiəsində fədakarlıq göstərmiş, mərdliklə döyüşmüş, sağlamlığınızı qismən itirmisiniz. Əksəriyyətiniz müharibənin ilk illərində hələ nizami ordu yaranmamış könüllü olaraq cəbhəyə getmisiniz. Biz sizin vətənpərvərliyinizi yüksək dəyərləndiririk. Bu gün sıramızda ikən yüksək quruculuq işlərində iştirak edir, töhfələrinizi verirsiniz". Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ilə Azərbaycanın gündən-günə inkişaf etdiyini deyən Q.Ağayev Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin daim dövlətin diqqətində olduğunu bildirmişdir.

***S.CAVADOV,***
***"Azərbaycan"***

# Əlilliyi olan istedadlı gənclər Qran-prini Azərbaycana gətirib

**"İstedadlı Əlillər" İctimai Birliyinin, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının təşkilatçılığı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə Aysel Əlizadə və Mehrac Dünyamalıyev 19-24 dekabr 2019-cu il tarixdə Ukraynada keçirilən "Sərhədsiz Dünya" Beynəlxalq musiqi, rəqs, incəsənət festivalında iştirak ediblər.**



Festivalda Aysel Əlizadə vokal, Mehrac Dünyamalıyev isə instrumental sənəti üzrə birinci yerin qalibi olublar. Bundan öncə, daha dəqiq desək, ötən ilin oktyabr ayında həmin gənclər Gürcüstanda keçirilən "IVERIA - DIAMOND - 2019" əlillər üçün ilk beynəlxalq mahnı, rəqs və incəsənət festivalında da qalib olaraq Qran-prini Azərbaycana gətirmişdilər.

Bu yüksək mükafata layiq görülən xalq mahnıları müsabiqələrinin qalibi Milli Konservatoriyanın 3-cü kurs tələbəsi Aysel Əlizadə və Mehrac Dünyamalıyevdir.

Xatırladaq ki, "İstedadlı Əlillər" İctimai Birliyi 6 ildir fəaliyyət göstərir. Burada 250 nəfərdən artıq əlilliyi olan istedadlı gənclər toplanıb.

Birlik fəaliyyətə başladığı vaxtdan ötən müddət ərzində istedadlı gənclərin axtarılıb tapılması və üzə çıxarılaraq cəmiyyətə təqdim olunması istiqamətində bir sıra yaddaqalan layihələr həyata keçirib. Nəticədə buradakı istedadlı gənclər bir sıra yerli və beynəlxalq müsabiqə və festivalların iştirakçısı və qalibi olublar.

Birlik öz layihələrini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və QHT-lərə Dəstək Dövlət Şurasının köməyi ilə həyata keçirir.

Mehrac Dünyamalıyev deyir ki, o, müsabiqəyə sazlı-sözlü qoşulub: "Festivala Aşıq Veysəlin sözləri ilə yanaşı, xalqımıza məxsus "Sarı gəlin" mahnısı ilə qatılmışdım. Məsələ burasındadır ki, bizim ikimizə də həmin festivalda ermənilər tərəfindən təxribat yaradılmışdı. Biz çıxış edərkən mikrofonlar bağlanmışdı. Buna baxmayaraq, bizim daha çox alqışlanmağımız düşmənlərimizi məyus etdi".

Birliyin həmtəsisçisi, birinci qrup əlil Cavad Qasımov respublikamızın hansı bölgəsində yaşamasından asılı olmayaraq, istedadı olan fiziki məhdudiyyətli gənclərin axtarılıb tapılması istiqamətində tədbirlərin davam etdiyini bildirdi: "Biz özündə mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə istedadı olan gənclərimizi, təbii ki, söhbət bu kateqoriyaya daxil olanlardan gedir, axtarıb tapmağı və üzə çıxarmağı qarşımıza məqsəd qoymuşuq. Bu işlərimiz davam etdirilir. Qısa vaxt ərzində xeyli belə istedadlı gənclərin öz qabiliyyətləri ilə qaliblər sırasına çıxmaları, əlbəttə, sevindirici haldır. Biz əsasən buna çalışırıq. Yeri gəlmişkən, bu il ölkəmizdə əlilliyi olan şəxslər arasında "Odlar Yurdu" - Bakı 2020" Beynəlxalq musiqi, rəqs, incəsənət festivalı da təşkil olunacaq. Festivalda fiziki məhdudiyyətli istedadlılar iştirak edəcək. Adıçəkilən beynəlxalq festival da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə təşkil edilir. İstedadlı gənc əlillərin bu festivalda daha geniş tərkibdə və müxtəlif sahələr üzrə iştirakı gözlənilir".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Gənclər üçün "Vebinar" dərsləri

**Sumqayıt Gənclər Evində Respublika Gənclər Fondunun XIII qrant müsabiqəsində qalib olan "Gənclərin Vebinar dərsi" layihəsi çərçivəsində kompüter proqramlarının tədrisinə başlanılıb.**





Tədbir öncəsi şəhər Gənclər Evi ilə tanışlıq olub. Sumqayıt Gənclər Evinin direktoru Pəri Vəliyeva ölkəmizdə və şəhərimizdə uğurla həyata keçirilən dövlət siyasətindən, gənclərə göstərilən diqqət və qayğıdan söz açıb və iştirakçılara uğurlar diləyib. Pəri Vəliyeva sumqayıtlı gənclərin respublika ictimaiyyəti arasındakı intellekt çəkisində qazanılan müvəffəqiyyətlərə toxunub. O, bildirib ki, şəhərimizin həyatında gənclərin yeri böyükdür. Elə bir sahə yoxdur ki, orada gənclərə meydan verilməsin.

Daha sonra layihə rəhbəri Şəms Şükürova bildirib ki, məqsəd gənclərin informasiya texnologiyalarından səmərəli istifadəsini təmin etmək, kompüter, xüsusən dizayn proqramları sahəsində biliklərə yiyələnmələri, daha rahat, interaktiv üsulla bacarıqlarını inkişaf etdirmək və gələcəkdə məşğulluqlarının təmin edilməsinə imkan yaratmaqdan ibarətdir. Qeyd edilib ki, layihə çərçivəsində ümumilikdə 6 dərs proqramı tədris olunacaq və sonda iştirakçılara sertifikatlar təqdim ediləcək.

Gənc proqram təminatçısı Əli Miriyev tərəfindən vebinar formatda kompüter sahəsində ilkin anlayışları olan 16 nəfər iştirakçıya "Microsoft Office" paketi çərçivəsində MS PowerPoint proqramının ilkin anlayışları, texniki xüsusiyyətləri və işləmə mexanizmi haqqında məlumatlar verilib. Bildirilib ki, proqramdan əsasən qrafiklər, şəkillər, audio və videokliplər vasitəsilə təqdimatların və bir çox çap məhsullarının yaradılması üçün geniş istifadə olunur.

Sonda iştirakçılar çay süfrəsi arxasında fikir mübadiləsi aparmış, daha sonra şəhərimizin görməli yerlərinə səfər etmişlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 16-da Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparıblar.

# Ermənistanın keçmiş baş naziri Paşinyanı yalançılıqda ittiham etdi

*Əvvəli 1-ci səh.*

Baqratyan nazirlərə məxfi əmrlə mükafatlar verilməsini də yolverilməz adlandırıb. Əlavə edib ki, bununla idarəçilik sisteminə çox pis tendensiyalar daxil edilir.

Məhz belə vəziyyətdə problemlər içində boğulan Ermənistan əhalisi yeni hökumətə də etibar etmir. Paşinyan isə hər vəchlə hakimiyyətini möhkəmləndirməyə çalışır, hətta özü barədə xarici KİV-də sifarişli məqalələr də dərc elətdirir. Baş nazir bu günlərdə sosial şəbəkədə yazdığı statusda bildirib ki, İsveçrənin nüfuzlu nəşrlərindən biri olan "Berner Zeitung" Ermənistan barəsində müsbətyönümlü məqalə yazıb. Yazıda iddia edilir ki, inqilab Ermənistana müsbət təsir edib.

Yerli media dərhal bu məqalənin necə yazılmasını araşdırıb. Məlum olub ki, məqalə həddən artıq böyük məbləğ müqabilində sifariş əsasında yazılıb. "Lragir" nəşri belə xidmətlərin qiymətini dərc edib. Məqalənin müəllifi siyasi və iqtisadi mövzular üzrə ixtisaslaşan Frank Nienhuysen adlı biridir. Yekunda məqalənin yazılmasına görə bu şəxsə 7 milyon dram, təxminən 15 min ABŞ dolları ödənilib. Yerli mətbuat hazırda bu məqaləyə görə pulu kimin verdiyini araşdırmağa çalışır.

Nikol Paşinyanın reytinqinin sürətli şəkildə aşağı düşməsi ətrafında da hakimiyyət daxilində ciddi gərginlik yaşanır. Məsələn, "İrates" qəzeti yazır ki, "hakimiyyət orqanları sosial şəbəkədə artan hücumlardan da narahatdırlar. Bildirilir ki, baş nazirin mətbuat katibi Vladimir Karapetyanın istefası hökumət daxilindəki gərginliyi daha da dərinləşdirib. Qeyd olunur ki, baş nazirin durmadan enən reytinqi qarşısında hamıya hazır olmaq və sosial meydanda heç kimə aman verməmək tapşırığı verilib. Əks təqdirdə hamını işdən qovulmaq təhlükəsi gözləyir: "Saxta və real istifadəçilər Paşinyanın atdığı addımları tərifləməyə başlamalıdır. Ən əsası mümkün variantlarla opponentləri neytrallaşdırmaq, onları gözdən salmaq, inqilaba qədər kim olduqlarını başa salmaq tələb olunur. Bütün bunlar da hökumət üzvlərini özlərindən çıxarır. Çünki onlardan "feyk fabriklər"i doldurmaq və Paşinyanla müxalifət arasında sipər rolunu oynamaq tələb olunur".

Bütün bunların fonunda işğalçı ölkədə başlanan etiraz aksiyaları getdikcə daha geniş miqyas almağa başlayır. Buna əsas səbəb xalqın hakimiyyətin bütün sferalarda, o cümlədən siyasi, iqtisadi, humanitar sahədə həyata keçirdiyi siyasətdən duyduğu narazılıqdır. Eyni zamanda hərbi sahədə də Paşinyan iqtidarının fəaliyyəti böyük etirazlara yol açmaqdadır.

Son dövrlərdə isə erməni tərəfinin cəbhə zonasında itkilərinin sayının artması bu etirazları daha da gücləndirir. Dünən Ermənistan hökumət binası qarşısında qeyri-döyüş şəraitində ölmüş erməni hərbi qulluqçuların anaları yenidən etiraz aksiyasına başlayıblar. Onlar övladlarının ölüm işlərinin yenidən açılması, ədalətli istintaq həyata keçirilməsi və bu işlərlə məşğul olan hüquq-mühafizə sistemi nümayəndələri də daxil olmaqla, günahkarların cəzalandırılması üçün müstəntiqlərlə yenidən görüş və müzakirələrin təşkil edilməsini tələb edirlər.

Beləliklə, cari ildə Ermənistanda ictimai-siyasi vəziyyətin təlatümlü olması gözlənilir. Ağır sosial-iqtisadi vəziyyət ölkədə yeni xalq etirazlarının başlanmasını qaçılmaz edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# QANLI YANVAR - 30 İL





# Dünənin pəncərəsi

## Məkrli siyasətin Qara Yanvar faciəsi

Yaxşı xatırlayıram o günləri. Bakı nehrə kimi çalxalanırdı. 1990-cı ilin 19 yanvarında bizi - Sumqayıt şəhərinin fəallarını, idarə-müəssisə rəhbərlərini saat 15:00-da çağırıb yığdılar partiya komitəsinin akt zalına. Nə səhnədə görünən oldu, nə bizi niyə çağırıblar deyən. Oturub gözləməyə başladıq.

Xəyal məni keçən əsrin 60-cı illərinə apardı. Zəngəzur mahalının Qarakilsə bölgəsində, öz doğma kəndim Ağdüdə müəllim işlədiyim günlər kino lenti kimi gözlərimin önündə çözələndi. 1963-cü ildə N.S.Xruşşovun Ermənistana səfəri ərəfəsində A.İ.Mikoyanın Sisyana gəlməsi, Sisyan bazasının Naxçıvandan çıxarılıb 3 dəfə uzağa - Arazdəyəndə yerləşdirilməsini bildirmiş və ciddi surətdə tapşırmışdı: bütün tikinti materialları erməni kəndlərindən keçməlidir! Onun bu planının nələrdən xəbər verdiyini bilmək çətin deyildi. N.S.Xruşşovu ələ alıb 48,5 km-lik yeraltı su çəkmək üçün 61 milyon manat (rubl) əldə etdilər. Başqa respublikalardan biri - Qazaxıstan rəhbərliyi 16 km yeraltı su kəməri çəkmək üçün 16 milyon vəsait istəmişdi. N.S.Xruşşov onu rədd etmişdi. Bu vaxt Qazaxıstanın birinci katibi demişdi: "Bəs Ermənistana bu qədər pulu niyə ayırdınız?". Xruşşov təəccüblənmiş və "Ermənistana bu qədər müftə vəsaiti hansı əclaf verib", - demişdir.

Qəfil bir səs məni xəyaldan ayırdı.

"Dözün, bir azdan mühüm xəbər eşidəcəksiniz!"

Yenə sakitlik, yenə sükunət...

1964-cü ilin əvvəlində Ermənistan SSR-in birinci katibi Zarubyan bir iclasda demişdir: "Son dəfə xarici işlər naziri Qromıkonun yanında oldum. O, soyqırımın 50 illiyinin keçirilməsinə bir növ razılıq verdi, hazırlıq işlərinə başlamaq lazımdır". Həmin vaxt ciddi tapşırdılar ki, 1965-ci il aprel ayının 15-dən 30-a kimi ermənilərlə azərbaycanlılar bir yerdə işləməsinlər və ermənilərin gözünə görünməsinlər.

Yenə bir şüar məni xəyaldan ayırdı: "Ojidaytes vajnoye soobşeniye".

Yenə sükunət: Xəyal məni yenə o illərə apardı.

1966-cı ildə Stepanakertdə (Xankəndi) çıxan "Sovetaqan Qarabağ" qəzetinin redaktoru Arkadi Gülbekyanın rəhbərliyi altında gizli vərəqələr buraxılmışdı. Həmin vərəqələrdə Ağrı dağının şəkli verilmiş və şəklin altında yazılmışdır:

Erməni xalqı, vaxtdır, oyan!

Torpaqlarına sahib ol!

Rədd olsun türklər!(Yazı erməni dilində idi.)

1967-ci ildə o təşkilat hökumət tərəfindən dağıdıldı. Həmin il Xocavənd (Martuni) rayonunda faciəvi hadisələr başladı.

1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyevin böyük şəxsiyyətindən, uzaqgörən siyasətindən ermənilər çox qorxurdular.

Salondan eşidilən səs yenə fikrimi dağıtdı:

"Bir azdan mühüm xəbər eşidəcəksiniz!"

Yenə sakitlik, sükunət...

Tarixi düşmənlərimiz 1987-ci ilə kimi susdular. Sov.İKP MK-nın Baş katibi M.Qorbaçovun (1985-1991) hakimiyyəti illərində ermənilərin əl-qolu açıldı, üzlərinə gün doğdu. 1988-ci il fevralın 19-da İrəvan şəhərində böyük mitinq təşkil etdilər, 1988-ci il fevralın 29-u Sumqayıtda ermənilər öz millətlərindən olan 26 nəfəri öldürdülər. 1988-ci il noyabr-dekabr aylarında ermənilər azərbaycanlıları öz dədə-baba yurdlarından, tarixi torpaqlarından zorla qovdular. 217 nəfər soydaşımızı ağır işgəncələrlə qətlə yetirdilər.

Artıq gecə saat 23:30-dur. Zaldakıların bəzisi yuxulayıb, bəzisi xəyala dalıb "mühüm xəbər" gözləyirlər. Birdən qapılar taybatay açıldı. Əlində rezin dəyənək olan, silahlı əsgərlər bütün binanı nəzarətə götürdülər. Səhnəyə qara bayraq gətirildi, hər şey aydın oldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən 5 istiqamətdə Bakı şəhərinə yeridilmiş və dinc əhaliyə divan tutmuş, nəticədə yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdü. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək qudurmuş hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə 20 yanvarda və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyət elan olunmayan rayonlarda-yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın digər rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 4 nəfər itkin düşmüş, 400 nəfər qanunsuz həbs edilmişdir. Sovet hərbi qulluqçuları tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili tibbi yardım maşınları və digər dövlət və şəxsi əmlaklar yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri olmuşdur.

SSRİ-nin ilk prezidenti M.S.Qorbaçov milliyyətcə ermənilərin çox yaşadığı Stavropol vilayətindən 25-30 yaşlı cavanları orduya səfərbər etmiş, türk qanına susamış həmin ordunu yanvarın 19-dan 20-ə keçən gecə Bakıya yeritməklə dinc əhalini güllələborana tutmalarının təşkilatçısı olmuşdur.

SSRİ dövlətinin bu cinayətinə qarşı öz ilk etiraz səsini qaldıran görkəmli dövlət xadimi, böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyev oldu.

Heydər Əliyev təhlükə qarşısında olmasına baxmayaraq, 1990-cı ilin yanvarın 21-də Azərbaycan SSR-in Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək SSRİ dövlətini, M.S.Qorbaçovu Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətində ittiham etdi və onun bu etirazı bütün dünyada böyük əks-sədaya səbəb oldu.







Foto Ağaəli MƏMMƏDOVUNDUR

20 Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır. Əvvəlcədən hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistandan qovulmuş 250 min azərbaycanlıya Ə.Vəzirov heç cür kömək etmək istəmirdi. Onları Bakıya qoymurdu. Gələnlərə deyirdi ki, siz ermənilərə böhtan atırsınız, şər deyirsiniz, millətlər arasında ədavəti, ziddiyyəti gücləndirirsiniz.

Ermənistandan zorla qovularaq sonuncu qəpiklərini verib ev almaq istəyənlərə maneçilik törədilirdi. Vəzirov Bakı Sovetinə tapşırıq vermişdi ki, Bakıda ermənilərdən ev almış, o evdə yerləşmiş ailələr çıxarılıb bayıra atılmalı, tutulub həbs edilməlidir. Vedi rayonundan qovulanlardan Mahmud Yusifov, Suqra Məmmədova, Ağamir Əsədov, Musa Xəbərov və başqaları imkan tapıb Vəzirovla görüşüblər:" İrəvanın yaxınlığında, dəmir yolunun kənarında, yəni Qarabağdan qat-qat yaxşı şəraitdə yaşayırdıq. İndi bizi Qarabağda yerləşdirin, Qarabağ ermənilərinin də ora köçürülməsini sizdən xahiş edirik". Vəzirov onlara ağır cavab vermişdi: "Qarabağ ermənilərin ana torpağıdır? O barədə danışmayın, özünüzə yer tapın", - demişdir.

Soydaşlarımıza qarşı bu amansız hərəkətləri görən xalq daha da qəzəbləndi, meydanlara axışdı. Vəzirovun ermənipərəstliyini görüb istefasını tələb etdi. Yanvarın 17-də onlar Mərkəzi Komitənin binası önündə bütün yolları bağlayıb fasiləsiz mitinqlərə başladılar. Mitinqçilər Vəzirovun istefasını tələb edəndə o çıxıb "mən istefa verirəm" - desəydi, izdiham sakitləşəcəkdi. Amma əksinə oldu. Vəzirov gecə-gündüz Moskva ilə əlaqəni kəsmədi, Qorbaçovdan kömək istədi. Ordunun gəlməsini gözlədi. Ordu gəlməsə, Azərbaycanda sovet hökuməti dağılacaq, - dedi. Vəziyyəti nəzarətə almaq üçün Qorbaçovun yaxın siyasi silahdaşı Yevgeni Primakovun başçılığı ilə siyasi büronun nümayəndə heyəti Bakıya gəlmişdi. Şəhər kənarında kazarmalarda yerləşdirilmiş çoxmilli qoşunlara şəxsən komanda vermək üçün SSRİ-nin müdafiə naziri Dmitri Yazov da Bakıda idi.

DQMV-də, Azərbaycanın və Ermənistanın sərhədyanı rayonlarında və Gəncədə fövqəladə vəziyyət tətbiq etmək qərarı verildi, lakin nədənsə bu qərar Bakıya şamil edilmədi. Bakıya qoşun yeridildi, nəticəsi göz qabağındadır. Vəzirov gizli yolla Nasosnu qəsəbəsində yerləşən hərbi təyyarə ilə Azərbaycandan qaçdı.

Sov.İKP MK-nın sonuncu baş katibi, SSRİ-nin ilk və son prezidenti M.Qorbaçov 1995-ci il aprelin 27-də İstanbulda Qara Yanvarla bağlı bunu demişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və ora qoşun göndərmək mənim siyasi həyatımın səhvi idi".

2015-ci ildə Qorbaçov özünün yazdığı "Həyat və islahatlar" kitabındakı memuarlarında sovet ordusunun 20 yanvarda Bakıya qanlı müdaxiləsi barədə mövqeyini qeyd edib. O, 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da etiraf edib: "Bu faciəli hadisədən dərs götürdüm. Problemlərin həlli yalnız siyasi yolla tapılmalıdır". Bunlar gecikmiş etiraflardır. Azərbaycanda 1990-cı il 20 Yanvar faciəsinin əsas təşkilatçısı kimi M.Qorbaçov xalqımız tərəfindən həmişə nifrətlə xatırlanacaqdır.

***Əvəz Mahmud LƏLƏDAĞ,***
***Sumqayıt***

# Qafqaz Müsəlmanları İdarəsi 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Azərbaycan xalqına qarşı dəhşətli cinayət - tarixi yaddaşımıza dərin hüzn, eyni zamanda, milli qürur və qəhrəmanlıq məktəbi kimi həkk olunmuş Qanlı Yanvar faciəsinin 30-cu ildönümü ərəfəsindəyik. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaq.

Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar günü bütün faciəsinə rəğmən, xalqımızın milli müstəqillik, azadlıq uğrunda şəhidliyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzinə çevrildi. 20 Yanvar Azərbaycan xalqını müstəqilliyə, milli-mənəvi və dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi oldu. Təpədən dırnağadək silahlanmış ordunun cəza tədbirlərinə məruz qalan xalqımız diz çökmədi, azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha da yüksəkdən bəyan etdi. Azərbaycanın taleyi, hətta dövləti varlığı şübhə altında olduğu bir vaxtda bu səsi ilk olaraq Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev ucaltdı, siyasi yolunun davamçısı İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirdi. SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirən, qanlı cinayətin təşkilatçılarını sərt ittiham edən, törədilmiş hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd təxribat kimi səciyyələndirən Heydər Əliyev bu addımı ilə Ümummilli Lider olaraq Azərbaycanın hələ elan olunmamış müstəqilliyinin ilk tarixi səhifəsini yazdı. Şəhidlərin layiq olduqları status da məhz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı dönəmində rəsmiləşdi və 20 Yanvar hadisələri Azərbaycan Milli Məclisində siyasi qiymət alaraq SSRİ dövlətinin xalqımıza qarşı törətdiyi hərbi təcavüz aktı kimi qiymətləndirildi.

Həmin faciə günlərində Bakıdan səsini ucaldan Şeyxülislam Allahşükür Paşazadə sovet rejiminin ciddi təzyiq, təhdid və məhdudiyyətlərinə baxmayaraq, keçmiş SSRİ Prezidenti Mixail Qorbaçova göndərdiyi qəzəb, ittiham dolu etiraz məktubunda hadisələrə sərt və prinsipial münasibətini bildirdi. Siyasi liderimizin və dini rəhbərimizin kəskin mövqeləri xalqı ruhlandırdı, səfərbər edərək birləşdirdi. Milyonlarla insan təqiblərdən, hətta ölümdən belə qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidləri müqəddəs Vətən torpağına tapşırdı. Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuşlar sırasında müxtəlif din və millətlərə mənsub vətəndaşlarımız var idi və şəhidlərin dəfn mərasimində müxtəlif dini konfessiyaların başçıları hamı ilə birgə idilər. Beləliklə, qanlı 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi, milli birlik, həmrəylik örnəyi kimi həkk olundu.

Qafqaz Müsəlmanları İdarəsi qanlı hadisələrin ilk günündən var qüvvəsi ilə çalışdı ki, Qarabağ münaqişəsinin davamı olan 20 Yanvar faciəsini dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırsın, haqq işimizə dəstək qazansın, törədilən cinayət insaniyyətə qarşı yönəldilən amansız cinayət tədbiri kimi qiymətləndirilsin. Dünya qəbul etməlidir ki, XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları, insanlığa qarşı ağır cinayətlər sırasında Azərbaycan xalqına qarşı kütləvi terror - Qarabağ münaqişəsi, Xocalı soyqırımı, 20 Yanvar cinayəti də vardır. Təəssüflər olsun ki, dünyada problemlərə qərəzli, ikili standartlar çərçivəsində yanaşıldığından bəzi ölkələr və beynəlxalq təşkilatlar susmağa üstünlük verməkdədirlər.

Azərbaycan xalqının tam mənəvi haqqı vardır ki, öz qatillərini - Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M.Qorbaçovu və onun əlaltılarını məhkəməyə cəlb etsin, beynəlxalq qanunlar zəminində canilərin qəddarlığı, riyakarlığı, vəhşiliyi, əsl niyyətləri dünya ictimaiyyətinə tam şəkildə açılsın. Açılmalıdır ki, o zaman Azərbaycana qarşı əsassız ittiham yürüdülmüş, baş verənləri milli və dini münaqişə kimi qələmə verməyə cəhd edilmiş, xalqımızın istibdada qarşı mübarizəsi dünya ictimaiyyətinə islam fundamentalizmi, ekstremizm kimi təqdim edilmiş və nəticə etibarilə, günahsız insanların qanı tökülmüşdü. Yer üzündə ədalətin təmini, Uca Yaradanın xəlq etdiyi insan həyatına qarşı təcavüzə son qoyulmasının yolu günahsız insan qırğınlarına beynəlxalq müstəvidə hüquqi-siyasi və mənəvi qiymət verilməsindən, bu cinayətləri törədənlərin cəzalandırılmasından keçir.

Azadlığın, müstəqilliyin yolu ağırdır və bu yolu qurban vermədən keçmək mümkün deyildir. Odur ki, 20 Yanvar günü qüssə-kədərə batmaq günü deyil, şəhidlərimizi anmaq, xalqımıza, xüsusilə gənclərimizə qəhrəmanlıq və vətənpərvərlik ruhu təlqin etmək günü olmalıdır. Şəhidlik imanın, vətənpərvərliyin, əqidə və amal uğrunda mübarizənin ən yüksək zirvəsidir. "Qurani-Kərim"də buyurulur: "Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzilənirlər..." (Ali-İmran, 169). Bu gün hər bir azərbaycanlının boynunda şəhid haqqı vardır. Şəhidlərin ruhuna ən böyük töhfə müstəqilliyimizin davamlılığı, Qarabağ zəfəri, dövlətçiliyimizin artan qüdrəti, Vətənimizin tərəqqisi və xalqımızın səadətidir. Biz inanırıq ki, Allahın köməyi və möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə millətimiz öz ülvi arzularına yetişəcək, doğma torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın hər yerində qələbə şəninə bayram namazları qılınacaqdır, inşallah.

Qafqaz Müsəlmanları İdarəsi bütün Qafqaz müsəlmanlarının adından 20 Yanvar şəhidlərinin, eləcə də Vətənimizin bütövlüyü və milli müstəqilliyimiz uğrunda canlarını fəda etmiş bütün şəhid ailələrinə dərin hüznlə başsağlığı verir. Bu ümummilli hüzn, eyni zamanda xalqımızın birlik və vəhdətini təcəssüm etdirən qürurlu tarixin ildönümü gününü yüksək səviyyədə qeyd etmək, şəhidlərimizin əziz ruhlarını anmaq bütün vətəndaşlarımızın, o cümlədən dindarların Allah, Vətən qarşısında müqəddəs borcudur.

Dini mərkəz olaraq 20 Yanvar günü bütün məscidlərimizdə bu bəyanatın mətninin oxunmasını, Qarabağ, 20 Yanvar həqiqətləri barədə moizələr edilməsini, əziz şəhidlərimizin xatirəsini dualarla yad etməyi vacib sayırıq. Uca Allah şəhidlərimizə rəhmət eləsin!"

# Tariximizin şanlı səhifəsi




Sovet ordusu 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törətdiyi qırğınları beş gün sonra Lənkəranda, Haftoni meşələrində təkrarladı, dinc sakinlər qanına qəltan edildilər.

Vətənimizin tarixində elə mühüm hadisə yoxdur ki, Lənkəranda doğulub boya-başa çatmış mərd, cəsur oğulların iştirakı orada olmasın. Tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Böyük Vətən müharibəsinin qəhrəmanı Baloğlan Abbasovun igidliyi, rəşadətli döyüş yolu nəsillərə nümunədir.

Lənkəran torpağının vətənpərvər oğulları 1990-cı ilin qanlı 20 Yanvar hadisələrində də əsl hünər nümunəsi göstərərək, Bakıya soxulmuş qırmızı imperiyanın qoşunu qarşısından qaçmayıb, sinələrini yurda sipər etdilər. Onlardan Telman Bağırov, Mircamal Əbülfətov, Asif Əsədullayev, Əflatun Kazımov və Azad Mirzəyev yanvarın 19-dan 20-nə keçən gecə Bakı küçələrində sovet ordusunun silahlı təcavüzünün qurbanı oldular.

O ağır günlərdə təkcə paytaxtda deyil, respublikamızın hər yerində imperiya əsarətinə qarşı etiraz mitinqləri keçirilirdi. Cənub bölgəsində də xalq azadlıq, müstəqillik uğrunda mübarizəyə qalxmışdı.

Yanvarın 22-də sovet silahlı qüvvələrinin bəzi hissələri Lənkəran şəhərini mühasirəyə almışdılar. Məlumata görə, bu əməliyyatda 2 mindən çox hərbçi iştirak edib. Paytaxt Bakıda 133, Neftçalada isə 2 nəfəri qətlə yetirən qaniçən ordunun növbəti hədəfi Lənkəran idi.

Lənkərana yeridilən sovet hərbçiləri xalq hərəkatı nümayəndələrindən guya onlarda olan silahları qeyd-şərtsiz təhvil verməyi tələb edir, dinc əhaliyə divan tutmaqla hədə-qorxu gəlirdilər. Əslində imperiya qoşunlarının Lənkəranı hədəfə alması təsadüfi deyildi. 1990-cı il yanvarın 11-də Lənkəranda Qarabağı ermənilərdən qorumaq üçün müdafiə qərargahı yaradılmışdı. Bütün xalq ayağa qalxmışdı. Şəhərin mərkəzi meydanında keçirilən mitinqlərdə hökumət erməni-pərəst mövqe tutmaqda günahlandırılırdı. Kommunist partiyasının üzvləri biletlərindən imtina edirdilər. Bakı qırğınları vəziyyəti kəskin həddə çatdırmışdı. Milli ordunun yaradılması istəyi ortaya çıxmışdı. Hərbçilərin özbaşınalıqlarına qarşı etiraz edən 100-dək könüllü adi ov silahları ilə də olsa, onlara müqavimət göstərməyə çalışırdı. Əsas məqsəd hərbçiləri şəhərdən uzaqlaşdırmaqla nahaq qanın tökülməsinin qarşısını almaq idi.

Şəhərdə camaatın başı üzərindən vertolyotların dövrə vurub vahimə yaratması və BTR-lərlə əhalinin qorxudulması, bütün bunlar təxribatlar idi. Sonda da Haftoni meşələrinə çəkilmiş könüllü dəstəyə qarşı qoşun yeridilməsi nəticəsində 5 nəfər öldürüldü.

Haftoni meşələrində qüvvələrin qeyri-bərabərliyi şəraitində keçən döyüş zamanı Lənkəran şəhər sakinləri Vaqif Məmmədov, Salman Baxşıyev, Şahin Məmmədov, Rahim Məmmədov və Rövşən Bədəlov həlak oldular.

Məlumata görə, sonrakı mərhələdə imperiya qoşunlarının silahlıları 16 nəfər lənkəranlı gənci Rusiyanın Ulyanovsk şəhərinə, 30 nəfəri isə Bakı yaxınlığındakı Şüvəlan qəsəbəsinə apararaq 30 gün həbsxanada saxlayıblar. Onlardan da bir nəfər - Taryel Abdullayev Ulyanovska aparılarkən vertolyotdaca boğularaq öldürülüb.

O günlərin hadisələri hər birimizin yaddaşında kədərli notlar kimi bu gün də səslənir və heç vaxt unudulmayacaq. 20 Yanvar şəhidləri ilə bərabər, 26 yanvar hadisələri zamanı həlak olmuş 6 nəfərin də adı Lənkəran şəhərinin girişindəki Şəhidlər xiyabanında əbədiləşdirilib. Yerli sakinlər bu müqəddəs məkanı ziyarət etməklə Vətən uğrunda şəhid olan həmyerlilərinin xatirəsini daim əziz tuturlar.

Qanlı faciəinin 30 illiyi ilə əlaqədar Lənkəranda da silsilə anım tədbirlərinin keçirilməsi nəzərdə tutulub. Belə ki, rayonun bütün ümumtəhsil müəssisələrində, Lənkəran Dövlət Universitetində, habelə Humanitar və Tibb kolleclərində faciəyə həsr edilmiş xüsusi dərslər keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə maddi yardım göstəriləcəkdir.

Yanvarın 20-də isə şəhərdəki Şəhidlər xiyabanında ümumxalq ziyarəti təşkil olunacaq, şəhidlərin məzarları üzərinə gül dəstələri düzülməklə xatirələri ehtiramla yad olunacaq. Həmin gün Lənkəran Dövlət Dram Teatrında anım-tamaşa nümayiş etdiriləcək, klub və muzeylərdə sərgilərə baxış keçiriləcəkdir.

Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Bizim xalqımız 20 Yanvar gününü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi. Bu, bütün Azərbaycan xalqına, Azərbaycan ölkəsinə edilən təcavüzdür. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanıdır, onlar millətimizin qəhrəmanlarıdır".

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin əməkdaşı***




# Mərakeş Azərbaycanın kənd təsərrüfatına maraq göstərir



Mərakeş Krallığının Azərbaycandakı səfirliyi “Aqrar Tədarük və Təchizat” ASC-nin dəstəyi ilə kənd təsərrüfatında çalışan sahibkarlarla görüş təşkil edib. Görüş zamanı iki ölkə arasında ixrac imkanlarının artırılması və aqrar sahədə mümkün əməkdaşlığın perspektivləri barədə məlumat verilib, fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən səfir Adil Embarş Mərakeş ilə əməkdaşlığın faydalarından və digər ölkələrlə qarşılıqlı iqtisadi əlaqələrindən bəhs edib. Mərakeşin dünyanın bir sıra ölkələri ilə əməkdaşlıq etməkdə maraqlı olduğunu qeyd edən səfir Avropa İttifaqı, ABŞ, Türkiyə və ərəb ölkələri ilə sərbəst ticarət sazişinin imzalandığını xatırladıb. Bildirib ki, Mərakeş Afrikada öz qitəsinə investisiya qoyan ilk ölkədir. Bununla yanaşı, səfir dünya üzrə 186 liman və 77 ölkə ilə əməkdaşlıq edən Tanger Med limanının əhəmiyyətindən və əməkdaşlıq imkanlarından danışıb.

Görüş zamanı cari il aprelin 14-19-da Mərakeşdə keçiriləcək 15-ci Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi (SIAM) barədə də məlumat verilib. 2006-cı ildə Kral VI Məhəmmədin təşəbbüsü ilə keçiriləcək sərgi Afrikanın ən geniş sərgisidir. Bu baxımdan sərginin Azərbaycanın aqrar istehsalçılar üçün önəmi vurğulanıb və bildirilib ki, SIAM yerli istehsalçılara yeni bazarlara çıxmaq və dünyanın bir sıra ölkələri ilə əməkdaşlıq etməyə imkan yaradır.

“Aqrar Tədarük və Təchizat” ASC idarə heyətinin üzvü Sərxan Sərxanov isə öz növbəsində səhmdar cəmiyyətin fəaliyyət istiqamətləri barədə məlumat verib, sərgidə iştirak etmək istəyən yerli aqrar istehsalçılara iştirak ilə bağlı hərtərəfli köməklik etməkdə hazır olduqlarını vurğulayıb.

Qeyd edək ki, “Aqrar Tədarük və Təchizat” ASC Prezident İlham Əliyevin 14 dekabr 2018-ci il tarixli sərəncamı ilə “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin bazasında yaradılıb. ASC-nin əsas məqsədi dövlət satınalma təşkilatlarının sifarişi əsasında ərzaq və kənd təsərrüfatı məhsullarının tədarük və təchizatını həyata keçirmək, kənd təsərrüfatı məhsullarının istehsalını, yaxud emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq və s.-dən ibarətdir.

# Fermerlərə ödəniləcək əkin subsidiyasının məbləği necə müəyyənləşir

Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi ilə bağlı proses davam edir. Hazırda fermerlərin sistemə daxil etdiyi torpaq sənədlərinin və payızlıq əkin məlumatlarının yoxlanılması aparılır.

Payızlıq əkinlərlə bağlı subsidiyaların verilməsi yoxlamaların tamamlanması ardıcıllığına uyğun olaraq mərhələli qaydada həyata keçiriləcək. Artıq ilkin sənəd qəbulundan sonra hesablanmış subsidiya məbləğləri barədə məlumatı ehtiva edən elektron bəyannamə-ərizələr fermerlərin şəxsi kabinetlərinə göndərilib. Bununla bağlı fermerlərin mobil nömrələrinə müvafiq SMS göndərilib və onlar şəxsi kabinetə bildiriş göndərilməsi ilə bağlı məlumatlandırılıblar. Elektron bəyannamələr fermer tərəfindən 3 gün ərzində təsdiqlənmədiyi halda avtomatlaşdırılmış qaydada təsdiqlənəcək və yoxlama mərhələsinə yönləndiriləcək. Bu məlumatlarla razı olmayan fermer elektron kabineti vasitəsilə müraciət, yaxud DAİM-lərə gəlib təklif və ya şikayətini təqdim edə bilər.

Yoxlamalar - sənədlər əsas götürülməklə: a) inteqrasiya vasitəsilə digər qurumlardan əldə edilən məlumatlarla uzlaşdırma; b) peyk yoxlaması; c) aidiyyəti orqanlara sorğuların göndərilməsi; d) yerində yoxlamalar vasitəsilə həyata keçiriləcək. Yoxlama nəticəsində yekun subsidiya məbləği dəqiqləşdirilmiş olacaq, fərqliliklər barədə fermerlərə bildirişlər göndəriləcək. Burada əhəmiyyətli olan doğru torpaq sənədinin təqdim edilməsi və həmin torpaq ərazisinə əkilən bitki hektarı və növü barədə doğru informasiyanın sistemə təqdim edilmiş olmasıdır. Kənarlaşmalar barədə qəbul edilən




yeni qaydaya uyğun tədbirlər görüləcək.

Çoxillik əkmələrlə bağlı edələn bəyanlara uyğun olaraq hesablamaların, yoxlamaların aparılması və optimal müddətdə ödənişlərin həyata keçirilməsi nəzərdə tutulur.

Prezidentin 2019-cu il 27 iyun tarixli fərmanına əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 manat müəyyən edilib. Hər bir fermer üçün sənədləri təqdim etdiyi torpaq sahələrində əkdiyi və bəyan etdiyi bitki növü üzrə baza məbləğinə əmsal tətbiq olunmaqla əkin subsidiyası hesablanır.

Əkin subsidiyası veriləcək bitkilər üzrə əmsallar barədə artıq Aqrar Subsidiya Şurası tərəfindən qərar qəbul edilərək ictimaiyyətə elan edilib. Fermerlər bu subsidiya məbləğini 2019-cu ildən onların istifadəsinə verilən kalkulyator vasitəsilə öyrənə bilirlər.

Nəzərə alınmalıdır ki, pambıq, tütün, fındıq, çəltik, çay bitkilərinin istehsalı Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən rayonlar üzrə dəstəklənir. Məqsəd qeyd edilən bitkilərin yüksək məhsuldarlıq əldə edilən və ya edilə biləcək rayonlar üzrə istehsalının dəstəklənməsidir.

Əkin subsidiyası üzrə növbəti yenilik damcı suvarma sistemi ilə təmin olunmuş yeni intensiv meyvə bağlarına daha yüksək əmsalla (2-4 arası) dəstəyin müəyyən edilməsi və bu dəstəyin ilk 4-5 il ərzində davam etməsidir. Üzüm və intensiv meyvə bağları üzrə subsidiyalar 2019-cu ildən başlayaraq salınmış bağlara şamil ediləcək. Digər meyvə bağlarına görə, əkin subsidiyası 1,2 əmsalı üzrə veriləcək. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib.

# Qubanın var alması

## Bu əvəzsiz meyvə yenə də rayonun kənd təsərrüfatında xüsusi çəkiyə malikdir



*Əvvəli 1-ci səh.*

Bu qərardan sonra respublika iqtisadiyyatının tənzimlənməsi və daha da inkişaf etdirilməsi üçün mühüm addımlar atıldı və bir neçə il ərzində təkcə Qubada 14 min hektarda intensiv tipli yeni bağlar salındı. Xatırladaq ki, o vaxtadək Azərbaycanın heç bir rayonunda bu qədər intensiv tipli bağ sahəsi olmamışdı.

Söz düşmüşkən, qeyd edək ki, həmin illərdə Qusar, Xaçmaz və Şəki rayonlarının da hər birində 1000 hektar olmaqla intensiv meyvə bağları salındı. Alimlərin apardıqları araşdırmalardan sonra əsasən Macarıstan və Moldovadan Azərbaycana 20-yə qədər məhsuldar alma sortları gətirildi. Ümummilli Lider keçmiş sovet respublikalarından mütəxəssisləri Qubaya dəvət etdi. 1983-1984-cü illərdə bağların hər hektarından orta hesabla 450-500 sentner məhsul toplanıldı. 1984-cü ildə Quba bağbanları rayonun tarixində ilk dəfə olaraq 100 min tondan çox meyvə toplamağa müvəffəq oldular.

Müstəqilliyin bərpasından sonrakı ilk illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə aqrar islahatlara start veriləndə Qubada 37 kolxoz, sovxoz və digər bu tip dövlət müəssisəsi mövcud idi. İslahat nəticəsində həmin müəssisələrə məxsus olan 13424 hektar meyvə bağı vətəndaşların xüsusi mülkiyyətinə verildi. Hazırda Qubada 17 min hektara yaxın meyvə bağı var. Bunun 13 min hektarı alma bağlarıdır. Təkcə son bir neçə il rayonda 5000 hektardan çox yeni meyvə bağları salınıb. Həmin bağlarda cırhacı, sarıturş, Şirvan gözəli, qızıləhmədi, aybı, sinab, qəndisinab, qaraturş kimi ənənəvi sortlarla yanaşı, xaricdən gətirilərək rayonlaşdırılmış yüksək məhsuldar sortlar da geniş yayılıb.

Məlum olduğu kimi, bağçılığın inkişafının elmi əsaslarını işləyib hazırlamaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Qubada Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutu fəaliyyət göstərir. Ötən əsrin 20-ci illərində yaranan, 60-cı illərin əvvəllərinədək Mərdəkanda fəaliyyət göstərən bu institut 1964-cü ildə Qubaya köçürülüb. Hazırda 4 şöbə və 3 laboratoriyadan ibarət olan bu elm ocağında 194 nəfər çalışır. İnstitutun Lənkəranda Sitrus bitkiləri filialı, Abşeronda Təcrübə stansiyası, Qəbələdə və Zaqatalada dayaq məntəqələri var. İnstitutun əməkdaşları təkcə Quba rayonunda 350 hektardan çox meyvə bağında təcrübə aparırlar.

Hər il Quba bağlarında yüksəkkeyfiyyətli meyvə istehsal olunur. 2019-cu ildə rayon üzrə 115,8 min ton alma istehsal edilib. Həmin məhsulun bir hissəsi bağlardan birbaşa emal müəssisələrinə, bir hissəsi bazarlara göndərilib.

Qubada ayrı-ayrı sahibkarlar tərəfindən ümumi tutumu 20 min tona yaxın olan 11 soyuducu-kamera tikilib. Bu da bağbanlara imkan verir ki, istehsal etdikləri məhsulun bir hissəsini saxlayaraq onu daha sərfəli vaxtlarda bazara çıxara bilsinlər.

Keçən il yığılan almanın çox hissəsi Azərbaycan brendi kimi Belorusa, Qazaxıstana, Ukraynaya ixrac edilib. Zərdabi, Alekseyevka, Vladimirovka, Barlı, Gültəpə, Zərqova və digər kəndlərdə yetişdirilən almanın böyük hissəsi xarici ölkələrə daşınır. Onu da bildirək ki, vaxtaşırı Rusiya, Özbəkistan, Türkmənistan və başqa ölkələrdən Qubaya gələn nümayəndələr almanın becərilməsi ilə tanış olmuşlar. Digər tərəfdən dövlət qurumları da almanın satılması və saxlanmasında maraqlıdır.

Qubalılar yerli alıcıları da yaddan çıxarmırlar. Almanın bir hissəsi daxili bazarlara göndərilir. Ölkəmizin müxtəlif şəhərlərində keçirilən yarmarkalara bu günədək minlərlə ton alma daşınıb. Münasib qiymətə bazara çıxarılan məhsul əhali tərəfindən razılıqla alınır.

Qubada alma bağlarının salınması rayonun bütün təşkilat və idarələri tərəfindən aparılır. Rayon mərkəzində yerləşən məktəblərin çoxunun himayəsində alma bağları var. Bunlardan əlavə, Qubada aztəminatlı ailələrə yardım etmək məqsədilə yeni bağlar salınıb. Ümumiyyətlə, Almaniya, Fransa, Çin, Türkiyə və digər ölkələrdən gətirilən yeni alma sortlarının 350 hektar ərazidə becərilməsinə başlanıb.

***Akif ƏLİYEV, “Azərbaycan”***

# Qərb bölgəsində kümçülərin sayı artır



Dövlət başçısının rəhbərliyi ilə respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi və ərzaq təhlükəsizliyinin yaradılması ilə bağlı həyata keçirilən aqrar islahatlar, kənd təsərrüfatında ciddi inkişafa, mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə, bu sahəyə inamın və fəallığın artırılmasına səbəb olmuşdur. Bunu Qazax rayonunun timsalında da görmək olar.

Bu rayonda yüksək gəlir gətirən ənənəvi kənd təsərrüfatı sahələrindən olan baramaçılıq da inkişaf edir. Qısa vaxt ərzində çəkdikləri zəhmətin bəhrəsini görən rayon sakinləri baramaçılığın sirlərini öyrənib istehsalı ildən-ilə artırırlar. Görülən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2016-cı ildə 1502, 2017-ci ildə 4623, 2018-ci ildə 5000, keçən il 7667,5 kiloqram yaş barama istehsal edilmişdir.

Məlum olduğu kimi, baramaçılığın inkişafında əsas məsələ yemlə təminatdır. Bu təminatı yaratmaq üçün yeni tut bağları salınmış, köhnə bağlar bərpa olunmuşdur. 2016-cı ildə 24 min 500, 2017-ci ildə 4 min 300, 2018-ci ildə 20 min tut tingi əkilmişdir. Yeni bağların salınması 2019-cu ildə də davam etdirilmiş, Xanlıqlar, Cəfərli, Bala Cəfərli, Hüseynbəyli, Canalı, Kosalar, Çaylı, Bala Çaylı, Dəmirçilər, Ürkməzli, Alpout, Ağasıbəyli, Daş Salahlı, Orta Salahlı, Qazaxbəyli, Aşağı Salahlı, Yuxarı Salahlı, Birinci Şıxlı, İkinci Şıxlı, Kəmərli, Qaymaqlı, Aslanbəyli, Ağköynək və Qarapapaq kəndlərində 25 min 516 tut tingi əkilmişdir.

Yeni salınmış tut bağlarının baramaçılığın inkişafında böyük əhəmiyyət daşıdığını yaxşı bilən kümçülər onlara qayğı ilə qulluq edirlər.

# Arıçılar qazanclarından razıdırlar



Maya dəyəri az, gəliri çox olduğundan əhali arıçılığa daha çox maraq göstərir. Həm bu səbəbdən, həm də bu sahəyə olan dövlət dəstəyinin artması arıçılıqla məşğul olanların sayını artırıb. Arıçılar hər arı ailəsinə görə 10 manat subsidiyanın ödənilməsinə istehsalı artırmaqla cavab verirlər.

Ağstafa rayonunun iqlim şəraitinin, faunasının zənginliyi arıçılığın inkişafı üçün geniş imkanlar açır. Hazırda rayonun 320 sakini 5732 arı ailəsinə baxır. Keçən il hər arı ailəsindən 10 kiloqram bal götürən təsərrüfat sahibləri bu il həmin rəqəmin xeyli artdığını söyləyirlər.

Ağstafa balının həm dadı, həm də rəngi fərqlidir. Uzun illər arıçılıqla məşğul olan Düz Qışlaq kənd sakini Alı Mustafayev qazancından razılıq edir. Deyir ki, keçən il 64 arı ailəsi vardı, bu il 84-ə çatdırıb. Hazırda arıları qış mövsümünə hazırlayır. Çalışır ki, onlar qışdan heç bir xəstəlik tutmadan çıxsınlar.

Ümumiyyətlə, rayonda arıçılıqla məşğul olan təsərrüfat sahibləri çoxdur. Bu maraqlı təsərrüfat növünü nəsildən-nəslə ötürən ailələr də var. Arıçılıqda təbii çətinliklər olsa da, onlar öz ata-baba peşələrini davam etdirirlər.

Muğanlı kəndinin sakini Muradxan Bayramovun təsərrüfatında 112 arı ailəsi var. O, hər arı ailəsindən il ərzində 10 kiloqramdan çox bal və bal məhsulları götürür. Sadıxlı kəndinin sakini Nizami Sadıqov 136 arı ailəsinə baxır. O da deyir ki, arıçılıq çox gəlirli sahədir. Odur ki, 3 oğlunu bu işə cəlb etmişdir. Onlar artıq arıçılığın sirlərinə dərindən bələddirlər.

Tatlı kəndinin sakini Elnur Məmmədovun isə 90 arı ailəsi var. O da 4 nəfər ailə üzvü ilə birlikdə hər il bol məhsul əldə edir. Balı keyfiyyətli olduğundan qapıda satır. Deyir ki, gərək bu işə haram qatmayasan, elə ki qatdın, daha məhsul gözləmə. Keçənilki qazancından razı qaldığını bildirən təsərrüfat sahibi bu il arı ailələrinin sayını 100-ə çatdırmağı qərara alıb.

Muradxanlı kəndində də arı saxlayanlar çoxdur. Onlardan biri Murad Vəliyevdir. Murad kişi hər il Bakıda keçirilən bal yarmarkasında 100 kiloqrama yaxın bal satır. Yarmarkanı təşkil edənlərə minnətdarlığını bildirən təsərrüfat sahibinin təklifi də var: “Yaxşı olardı ki, belə yarmarkalar tez-tez təşkil olunsun. Onda bal satışında problem olmaz”.

Rayon arıçıları belə hesab edirlər ki, hava şəraitindən asılı olmayaraq istədikləri miqdarda bal götürə bilərlər. Bunun üçün arıçılığın sirrini bilmək lazımdır.

***Sabir ƏLİYEV, “Azərbaycan”***

# “ADAU-100” buğda sortu yetişdirilir

Azərbaycan Dövlət Aqrar Universitetinin 100 illik yubileyi münasibətilə “ADAU-100” adlı buğda sortu yetişdirilir.

Dövlət Sosial Komissiyasının təcrübə stansiyalarında sınaqdan keçirilmiş “ADAU-100” sortu çörək bişirilməsi üçün ən yüksək keyfiyyət göstəriciləri və alçaq boylu olması ilə digər sortlardan fərqlənir.

Xüsusi sort universitetin Taxıl və paxlalı bitkilər laboratoriyasının təcrübə sahəsində yetişdirilir.

# Qaxın İlisu kəndində qarın qalınlığı 20 santimetrə çatır

## Qubanın Xınalıq və Qrız kəndlərində isə temperatur mənfi 12 dərəcəyədək enib

Yanvarın 16-sı gecə saatlarından başlayaraq Azərbaycanın şimal-qərb bölgəsinin dağlıq ərazilərinə qar yağıb. Havanın temperaturu xeyli aşağı düşüb.



AZƏRTAC xəbər verir ki, Qax rayonunun İlisu kəndində qarın qalınlığı 20 santimetrə çatıb. Amma yağan qar sakinlər üçün heç bir problem yaratmayıb. Kəndin elektrik enerjisi və təbii qazla təchizatında fasilələr olmayıb.

Havaların qeyri-sabit, qarlı keçməsi ilə əlaqədar rayonun yol təsərrüfatının işçiləri gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər. Avtomobil yolları qardan təmizlənib, yollara duz-qum qarışığı səpilib.

Qubanın Xınalıq və Qrız kəndlərinə də xeyli qar yağıb. Burada temperatur mənfi 12 dərəcəyədək enib. Qusarda 4, Xızının Altıağac qəsəbəsində isə qarın hündürlüyü 5 santimetrə çatıb.

# Kənd təsərrüfatında dronlardan istifadə genişlənir

Bu gün dronlardan fərqli məqsədlər üçün istifadə olunur. Demək olar ki, artıq onlar dünyada gündəlik istifadə edilən texnoloji alətlərdən birinə çevrilib. Dron və ya pilotsuz uçan aparat (PUA) bu gün elmin və texnikanın tətbiq sahələrinə geniş yol açıb.



Yeri gəlmişkən, qeyd edək ki, “dron” sözü ingilis sözü “drone” sözündən götürülüb və bu da bortunda ekipajı olmayan uçan aparat deməkdir. Dronlar digər uçan aparatlara nisbətən xeyli ucuz olduğundan onlardan istifadə iqtisadi cəhətdən əlverişlidir.

Hazırda dronların kənd təsərrüfatında tətbiqi daha üstün yer tutur və məhz aqrar sektorda onların tətbiqi bu sahədə çox böyük inkişafa səbəb olub. Bu gün dronlardan kənd təsərrüfatının bir çox sahələrində uğurla istifadə olunur. Kənd təsərrüfatında tətbiq edilən dronlar əkin sahələrinin müxtəlif istiqamətlər üzrə monitorinqini aparmaqla qısa müddət ərzində məlumatlar toplayıb sistemləşdirməyə və proqnozlar verməyə imkan yaradır. Onlar əkin sahələrində üçölçülü xəritəçəkmə işlərini yüksək dəqiqliklə həyata keçirir, sahəyə verilən gübrənin bitki tərəfindən mənimsənilmə səviyyəsini və becərilən bitkinin xəstəliklə sirayətlənmə səviyyəsini müəyyən, sahənin suvarılan və ya quraq qalan hissələrini təyin edə bilir. Dronlar aqrokimyəvi məhsulların və pestisidlərin bitkilər üzərinə çilənməsini dəqiq həyata keçirir.

Ölkəmizdə ilk dəfə Ucar rayonunda çiləyici ilə təchiz edilmiş DJİ AGRAS MG-1P dronu vasitəsilə qırmızı tor gənəsinə qarşı kimyəvi mübarizə tədbirləri həyata keçirilib. Dron vasitəsilə kimyəvi mübarizə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Xəstəlik və zərərvericilərə nəzarət laboratoriyasının elmi işçisi Etibar İbrahimov və Bitki seleksiyası şöbəsinin elmi işçisi Zöhrab Qəribov tərəfindən həyata keçirilib.

Mütəxəssislər hesab edirlər ki, pambıq sahəsində qırmızı tor gənəsinə qarşı kimyəvi mübarizədə ağır texnikanın əvəzinə drondan istifadə edilməsi məqsədəuyğundur.

# Türkiyədə tədbir təşkil edilib

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi və görkəmli kinorejissor və ssenarist Həsən Seyidbəylinin 100 illiyi münasibətilə Ankara şəhərində təntənəli tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı -TÜRKSOY, ölkəmizin Ankaradakı səfirliyi, eləcə də Azərbaycan və Türkiyənin Mədəniyyət nazirlikləri tərəfindən birgə təşkil olunan mərasimdə rəsmi şəxslər, elm və mədəniyyət xadimləri, Ankara ictimaiyyətinin görkəmli nümayəndələri, habelə QHT və KİV təmsilçiləri iştirak ediblər. Əvvəlcə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Türkiyə Mədəniyyət və Turizm nazirinin müavini Əhməd Misbah Demircan və Azərbaycan Dövlət Film Fondunun sədr müavini Rəşad Qasımovun çıxışları olub.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ötən ilin Azərbaycanda "Nəsimi ili" kimi qeyd olunduğunu diqqətə çatdıran ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim vurğulayıb ki, bu çərçivədə Türkiyədə böyük şairin həyat və yaradıcılığına həsr olunan çox sayda və fərqli formatlarda tədbirlər təşkil olunub. Görkəmli Azərbaycan rejissoru və ssenaristi Həsən Seyidbəyli yaradıcılığının dünya kinematoqrafiyasına böyük töhfələr verdiyini qeyd edən səfir bildirib ki, onun ən möhtəşəm əsərlərindən biri də məhz "Nəsimi" filmidir.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının qərarı ilə ötən ilin türk dünyasında "İmadəddin Nəsimi ili" elan edilməsi sayəsində türkdilli ölkələrdə və dünyanın bir sıra dövlətlərində böyük şairin yaradıcılığına dair bir sıra mədəni layihələr həyata keçirildiyini diqqətə çatdıran Düsen Kaseinov söyləyib ki, bu işlər sırasında Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı tərəfindən 15 dildə tərtib olunan "İmadəddin Nəsimi dünya dillərində" şeirlər kitabının öz layiqli yeri var. Nəşrdə yer alan şeirlər və nəfis tərtibat onu əldə edən kitabsevərlərin qəlbini oxşayır.

Nəsiminin Türkiyədə geniş tanındığını və sevildiyini deyən Türkiyə Mədəniyyət və Turizm nazirinin müavini Əhməd Misbah Demircan qeyd edib ki, keçirilən tədbirlər sayəsində böyük şairin həyat və yaradıcılığı daha geniş auditoriyalara çatdırılıb. Türkiyə tərəfi hər zaman olduğu kimi, bundan sonra da Azərbaycan mədəniyyətinin, o cümlədən tarixi şəxsiyyətlərin tanınmasına və təbliğinə geniş yer verəcək.

Çıxışında Nəsimi şəxsiyyətinin ucalığı, eləcə də kinorejissor və ssenarist Həsən Seyidbəyli yaradıcılığının zənginliyinə diqqət çəkən Dövlət Film Fondunun direktor müavini Rəşad Qasımov ölkəmizdə kino yaradıcılığı, onun inkişaf istiqamətlərinə dair məlumatları da tədbir iştirakçıları ilə bölüşüb. Qeyd olunub ki, "Nəsimi" filmi də daxil olmaqla Həsən Seyidbəylinin bütün əsərləri kinosevərlərin yaddaşında silinməz iz buraxır.

Çıxışlarda diqqətə çatdırılıb ki, dünya poeziya xəzinəsinin nadir incilərindən olan Nəsimi yaradıcılığı, böyük şairin zəngin fəlsəfi düşüncəsi tarixin bütün dövrlərində tədqiqatçılar üçün maraq kəsb edib, şeir və qəzəlləri poeziyasevərlərin qəlbini oxşayıb. Vurğulanıb ki, Həsən Seyidbəylinin "Nəsimi" filmi şairin şəxsiyyətinin ucalığını tərənnüm edən ən dəyərli əsərlərdəndir.

İştirakçılara "İmadəddin Nəsimi dünya dillərində" kitabı hədiyyə olunub. Qeyd edək ki, ötən il "Nəsimi ili" çərçivəsində Türkiyənin ayrı-ayrı şəhərlərində çoxsaylı mərasimlər keçirilib, kitab təqdimatları olub, o cümlədən tamaşalar göstərilib.

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti

### Əyriçay Su Anbarı İstismarı İdarəsi 2020-ci il üçün tələb olunan cari təmir işləri ilə bağlı tikinti materiallarının, maşın və mexanizmlərin satın alınması ilə əlaqədar

### açıq tender elan edir

Tender 3 (üç) LOT üzrə keçirilir.

LOT-1. Cari təmir işləri üçün mal-material və mexaniki avadanlıqların, ehtiyat hissələrinin satın alınması.

LOT-2. Cari təmir işləri üçün tikinti materiallarının satın alınması.

LOT-3. Maşın və mexanizmlərin ehtiyat hissələrinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə imkanları.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Şəkinin Cumakənd kəndində (əlaqələndirici şəxs - Umarova Gülmayə Osman qızı, (telefon: 02424-5-12-25) ala bilərlər.

İştirak haqqı:
LOT-1 - 70.00 manat
LOT-2 - 95.00 manat
LOT-3 - 41.00 manat
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat - Şəki Əyriçay Su Anbarı İstismarı İdarəsi**
**Adı: Şəki YXO**
**H/h: AZ03AİİB 32051019447000201170**
**VÖEN: 3000104011**
**Bank: "KapitalBank"ın Şəki filialı**
**Kod: 200703**
**VÖEN: 9900003611**
**M/h: AZ37 NABZ 01350100000000001944**
**S.W.İ.F.T.BİK: AIIBAZ2X**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;
- Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **07.02.2020-ci il saat 15:00-a** qədər Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **15.02.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **18.02.2020-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

# Qrip, yoxsa virus?

## Valideynləri təşvişə salan xəstəlik nədir?



Son günlər ölkədə uşaqlar arasında yayılan, bir çox hallarda ağırlaşma ilə müşahidə olunan virus mənşəli xəstəlik əhali arasında narahatlığa səbəb olub. Valideynlər söyləyir ki, xəstələnən uşaqlarda hərarət yüksək həddə qalxır, günlərlə davam edir, qarında kəskin ağrılar yaranır, sağalma prosesi uzun çəkir… Bəs uşaqlar arasında müşahidə olunan bu hallar hansı xəstəliyin göstəricisidir? Həqiqətən də təşvişə düşməyə əsas varmı? Bu xəstəlik ölkədə hansısa ciddi epidemiyanın yayılmasının göstəricisidirmi?

Respublikanın **baş infeksionisti Cəlal İsayevin** dediyinə görə, hazırda ölkəmizdə epidemiya ilə bağlı hər hansı gərgin vəziyyət mövcud deyil. Sadəcə mövsümə uyğun olaraq kəskin respirator virusları yayılıb. Uşaqlarda temperatur, ishal, qusma və digər bu kimi hallar da məhz bu virus infeksiyaları ilə bağlıdır. Məsələn, adenovirus, enterevirus infeksiyaları ilə yoluxduqda sadalanan hallar müşahidə edilir. Amma bunu qrip adlandırmaq doğru deyil: "Bu il ölkəmizdə qripə yoluxan olmayıb. H1N1, H3N2 və sair - bunlar yayılması ehtimal olunan viruslardır. Bu il respublikada "donuz qripi", yaxud "quş qripi"nə yoluxma barədə rəsmi təsdiqlənmiş məlumat yoxdur. Lakin istisna da olunmur. Çünki hazırda Gürcüstan, Türkiyə, İran kimi qonşu ölkələrdə qrip xəstəliyi varsa, ehtimal ki, bizdə də var. Qripin viruslarını adi laboratoriyalarda təyin etmək olmur. Bu diaqnozu qoymaq üçün xüsusi reaktivlər, laboratoriyada şərait lazımdır. Bu isə hər laboratoriyada olmur, ayrı-ayrı mərkəzlərdə yoxlanılır".

### Bu şəxslər qripi daha ağır keçirir

Qripin ağır və yüngül forması olduğunu bildirən baş infeksionist söyləyir ki, bu xəstəlik xüsusilə körpələrdə, aşağı yaş qrupundan olan uşaqlarda, yaşlılarda, hamilə qadınlarda, xroniki xəstəliyi olan şəxslərdə daha ağır keçir: "Burada əsas məsələ düzgün müalicədir. Təəssüf ki, bəzən xəstəliyin sağalması üçün yanlış tədbirlərə əl atılır. Məsələn, uşaqda qızdırma müşahidə olunur, bu zaman valideynlər özbaşına, həkim təyinatı olmadan antibiotik istifadə edirlər. Halbuki qripə qarşı konkret müalicə vasitəsi zəif təsirə malikdir. O cümlədən də antibiotik çox az təsir göstərir. Buna görə də xəstə mütləq xəstəxana şəraitində müalicə olunmalıdır. Xəstəxana yox, ev şəraitində müalicə olunan hallarda isə həkim çağırmaq lazımdır. Çünki xəstədə ağırlaşma halının olmaması üçün o, ən azı temperaturu olduğu müddətdə həkim nəzarətində qalmalıdır".

C.İsayev bildirir ki, insanlar xəstəliyə yoluxubsa, ictimai yerlərdə çox olmaqdan çəkinməli, maskalardan istifadə etməlidirlər: "Həm özlərini, həm də ətrafdakıları qorumalıdırlar. İşləyənlər işə, tələbələr universitetə, məktəblilər məktəbə, körpələr bağçaya getməməlidirlər. Virusa yoluxmuş birinin 10-15 dəqiqə ictimai yerdə olması digərlərinin də xəstələnməsinə kifayət edir".

### Hərarət 39-u keçərsə...

Adıçəkilən məsələyə münasibət bildirən Respublikanın **baş pediatrı Nəsib Quliyev** deyir ki, hazırda payız-qış mövsümü üçün xarakterik olan soyuqdəymə xəstəliklərinə tez-tez rast gəlinir. Çünki havanın soyuması ilə əlaqədar olaraq bakteriya və virusların yayılmasına meyllik artır: "Uşaqların bağçalarda, məktəblərdə, kollektivdə cəmləşməsi, yəni bir-birini yoluxdurma ehtimalının yüksək olması, bakteriya və virusların aktivliyinin artması, digər tərəfdən immunitetin güclü olmaması xəstəlik riskini artırır. Ona görə də əvvəlki illərdə olduğu kimi, bu il də uşaqlar arasında bir sıra virus mənşəli xəstəliklər müşahidə olunur. Yayılan viruslar müxtəlif mənşəlidir. Onlar adenoviruslar, rinoviruslar, paraqrip və qrip, rotaviruslar adlanır və onların minlərlə stereotipləri mövcuddur".

N.Quliyev yüksək hərarət zamanı nə etmək lazım olduğunu açıqlayıb: "Bu viruslar çox sürətlə artıb çoxalır. Buna görə də virusların şiddətlə artıb çoxaldığı dövrdə hərarət müşahidə olunur. Əslində, 38.5, 39 dərəcəyə qədər olan hərarət orqanizmin infeksiyaya qarşı qorunma reaksiyalarından biridir. Çünki bədəndə hərarətin yüksəlməsi virus və bakteriyaların artıb çoxalmasına mənfi təsir göstərir. Bütün hallarda qızdırmanı salmaq lazım deyil. Əgər hərarət 38.5-dən, 39-a və ondan yuxarı qalxarsa, o zaman müdaxilə edilməlidir. Əks-halda hərarətsalıcı dərmanlardan istifadə etmək doğru deyil. Bu barədə valideynlər mütləq həkimlərlə məsləhətləşməlidirlər".

N.Quliyev bildirir ki, uşaqların xəstəlikdən qorunması üçün qidalanmaları, geyimləri, onlara göstərilən qulluq düzgün olmalıdır: "Yay mövsümündə günəş, qum, su vannası qəbul etmək, bol meyvə-tərəvəzlə qidalanmaq lazımdır. Peyvəndlər vaxtlı-vaxtında edilməlidir. Valideynlər bunlara əməl edərsə, uşaqlar bir qayda olaraq payız-qış mövsümündə az xəstələnərlər".

Adıçəkilən virus infeksiyalarından ölüm hallarının olması ilə bağlı sualı cavablandıran baş pediatr deyir ki, bütün dünyada olduğu kimi, bizim ölkəmizdə də virus xəstəlikləri qorxulu fəsadlar törədə bilir: "Əgər klassik gediş müşahidə olunursa adətən xəstəliyin əlamətləri bir həftə ərzində keçir. Bədənin özünün müdafiə qüvvələri səfərbər olunaraq xəstəliyi yox edir. Amma virus xəstəliklərinin qorxulu cəhəti odur ki, onlar bəzən gözlənilməyən ağır fəsadlar törədir. El arasında düşünülür ki, qrip qorxulu xəstəlik deyil. Amma ağır fəsadlar, hətta ölüm halları törətdiyinə görə hər kəs buna ciddi yanaşmalıdır. Bu gün xəstəliyi "qrip" adlandırırlar, amma sabah bu, ağır fəsadlar, meningit, qanaxma, sətəlcəm törədə bilər və ağır gedişlə ölümə gətirib çıxara bilər. Odur ki, valideynlər, tibb işçiləri, ümumiyyətlə, hər kəs buna ciddi yanaşmalıdır. Bu viruslar aldadıcı olur, adətən, düşünürlər ki, bir neçə günə keçəcək. Amma diqqətli olmayanda ağır fəsadlar törədir. Elə Balakəndə ölən məktəbli uşağın da diaqnozu kəskin respirator virus infeksiyası idi. Bu ölüm hadisələri başlanğıcda virus infeksiyası olsa da, sonradan fəsadlaşıb ağır xəstəliklər əmələ gətirir. Məsələn, meningit, sətəlcəm, baş-beyin toxumasının iltihablaşması... Dediyim kimi, bunlar həmişə mövcuddur və sadalanan məsələlərə diqqət edilməsə, bu gün də bu hallarla qarşılaşa bilərik".

Baş pediatr həmçinin onu da vurğulayır ki, ölkəmizdə aparılan bakterеoloji, virusoloji laborator müayinələr nəticəsində bu il bir virusun törətdiyi epidemiya hələ müşahidə olunmayıb. Əksinə, son günlərdə viruslarla bağlı xəstələnmənin sayı azalmağa doğru gedir və artım müşahidə edilmir.

### Uşaqlara bol maye, C vitamini ilə zəngin qidalar, meyvə-tərəvəz çox verin

Bəs uşaqları viruslardan qorumaq mümkündürmü? Virusa yoluxan uşaqların tez sağalması üçün nələrə diqqət etmək lazımdır?

Bununla bağlı məsləhət verən **pediatr Aytən İsmayılova** bildirir ki, virus infeksiyalarının qarşısını almaq mümkün deyil, xüsusilə, soyuq havalarda adenovirus, rotavirus və s. kimi viruslar daha da aktivləşir. Nəticədə uşaqlarda immunitet zəifləyir, virus infeksiyalarına yoluxma, ağırlaşma hallarına daha çox rast gəlinir: "Müşahidələrimə əsasən deyə bilərəm ki, bu il daha güclü viruslar özünü göstərir. Məsələn, virusa yoluxan uşaqlarda temperatur hətta 40-41 dərəcəyə qədər çatır. Biz gözləyirdik ki, bu, üç günə keçər, amma 7 günə qədər temperatur yüksək qaldı. Belə olan halda immunitet daha çox zəifləyir. Çünki leykositlər virusları məhv etmək istəyir və bu zaman onların sayı azalır, digər bakteriyalarla mübarizəyə gücü çatmır, ağırlaşmalar olur. Virus infeksiyasının ağırlaşmaları zamanı hətta ürək əzələsi, gözlərin buynuz qişası, mədəaltı vəzi belə zədələnə bilir, həmçinin pnevmoniyaya yol açır".

A.İsmayılovanın sözlərinə görə, uşaqlarda bağırsaq pozulmalarına səbəb olan qastroenterit və ya rotavirus infeksiyaları var ki, "bağırsaq qripi" kimi də tanınır. Bu zaman uşaqlarda güclü ishal olmasa da, qarında ağrı, sancılar yaranır, iştah olmur, hərarət 3 gün ərzində davam edir: "Bu zaman müalicə taktikamız itirilmiş mayenin bərpa edilməsi olur. Məsələn, uşaq içdiyi mayeni qaytarır, qızdırması olduğu üçün bədəndə buxarlanma gedir. Buna görə də uşağın ümumi vəziyyətinin pisləşməməsi üçün itirilmiş maye bərpa olunmalıdır".

Həkim deyir ki, virus infeksiyalarının ən təhlükəlisi qrip infeksiyasıdır. Qrip daha çox ağırlaşma verə bilər, meningit, pnevmoniya, bronxit və s. yarada bilər. Genetik allergiyası, obstruktiv bronxiti olan uşaqlarda isə hər virus infeksiyasında ağırlaşma təkrarlana bilər: "Biz daha çox risk qrupuna daxil olan, obstruktiv bronxiti, astma, allergiyası olan uşaqları qorumağa çalışırıq ki, hər dəfə xəstələnəndə ağırlaşmasınlar. Amma 3 günlük hərarətdən sonra uşaqların halı düzəlməyə başlayırsa, narahat olmağa dəyməz. Sadəcə təbii vasitələrlə onların immunitetini gücləndirmək lazımdır. Uşaqlara bol maye, C vitamini ilə zəngin qidalar, meyvə-tərəvəz çox verilməlidir. Uşaqların immunitetini xəstələnməmişdən əvvəl möhkəmləndirmək lazımdır. Zərərli qidalar, kolbasa-sosiska, şirniyyat yedikdə, tez-tez yersiz kimyəvi dərmanlar, antibiotiklər, ağrıkəsicilər qəbul etdikdə onların bağırsağında mikroflora məhv olmağa doğru gedir və immunitet zəifləyir. Sağlam qidalanan, meyvə-tərəvəz, lifli qidaları bol yeyən, dərmanlardan, antibiotiklərdən uzaq olan, əvvəldən ana südü ilə qidalanan uşaqların immuniteti güclü olur. Bundan əlavə, yay aylarında uşaqların kifayət qədər D vitamini qəbul etməsinə fikir vermək lazımdır. D vitamini sintezi gedən vaxtlarda uşaqları havaya çıxarmaq vacibdir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 25 noyabr 2019-cu il tarixində elan edilmiş "6 ədəd UAZ-390945-520 Fermer tipli avtomaşının satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Sun Cars" MMC müəyyən edilmişdir. "Aztelekom" MMC ilə "Sun Cars" MMC arasında 14 yanvar 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## BMT-nin 2020-ci il proqramının icrası üçün büdcə çatmaya bilər



Əgər üzv-ölkələr üzvlük haqqını vaxtında və tam həcmdə ödəməsə, BMT-nin 2020-ci il proqramınını icrası üçün büdcə vəsaiti çatmaya bilər. Bu barədə təşkilatın baş katibi Antoniu Quterreş məlumat vermişdir. Onun dediyinə görə, ötən ilin sonunda ölkələrin üzvlük haqqı üzrə borclarının ümumi məbləği 2018-ci il göstəricisini üstələmişdir. Quterreş xatırlatmışdır ki, təşkilat keçən il son onillikdə ən iri maliyyə böhranı yaşamışdır. Baş katib qeyd etmişdir ki, BMT üzvlərinin daimi dəstəyinə güvənir.

Ötən ilin oktyabrında məlum olmuşdur ki, BMT-nin üzvü olan 50-dən çox dövlət, o cümlədən ABŞ illik üzvlük haqqını ödəməmişdir. Bu səbəbdən təşkilat bəzi fəaliyyət növlərini ixtisar etmiş və Nyu Yorkdakı mənzil-qərargahında qənaət rejimi tətbiq etmişdir.

## Əfqanıstanda taliblərlə döyüşdə 11 polis həlak oldu

Əfqanıstanda "Taliban" radikal hərəkatının silahlıları ilə döyüş zamanı azı 11 polis əməkdaşı həlak olmuşdur. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Döyüş ölkənin şimalında yerləşən Kunduz əyalətində baş vermişdir. Asayiş keşikçiləri cavab atəşi ilə "Taliban"ın on silahlısını öldürmüşlər.

Bundan əvvəl Əfqanıstanın Bəlx əyalətində hərbi bazanın yaxınlığında baş vermiş partlayış zamanı altı əsgər həlak olmuşdur. Orada avtomobilə qoyulmuş partlayıcı qurğu işə düşmüşdür.

Həmçinin məlum olmuşdur ki, ölkədə bir neçə əsgər 25 xidmət yoldaşını güllələyib taliblərin tərəfinə keçmişdir.

## Beyrutda polislə toqquşmalarda 35 nəfər yaralandı



Livanın paytaxtı Beyrutda polislə toqquşmalar zamanı azı 35 nəfər müxtəlif dərəcəli xəsarət almışdır. Bu barədə yerli Qırmızı Xaç Cəmiyyəti məlumat vermişdir.

Yaralılar xəstəxanalara yerləşdirilmişdir. Daha 10 nəfər tibbi yardım almışdır.

Məlumata görə, Korniş əl-Məzrəə küçəsində yerləşən polis binasının yaxınlığında toqquşmalar nümayişçilər bundan əvvəl saxlanmış silahdaşlarının azad olunmasını tələb etdikdən sonra başlamışdır. Etirazçılar asayiş keşikçilərinə daş və fişəng atmış, polis isə gözyaşardıcı qaz və güc vasitələrindən istifadə etmişdir.

Həmçinin qeyd olunur ki, adıçəkilən küçədə yerləşən Rusiya səfirliyinin yaxınlığında gözyaşardıcı qazlı iki qumbara partlamışdır. Diplomatik missiyanın nümayəndələri zərər çəkməmişlər.

## İndoneziyada iki ada suyun altında qaldı



İndoneziyanın Cənubi Sumatra əyalətində yaşayış olmayan Betet və Qundul adaları tamamilə suyun altında qalmışdır. Adalardan birində UNESKO-nun tanıdığı milli qoruq yerləşirdi.

Məlumata görə, hazırda adaların üstündə suyun hündürlüyü 1 metrdən 3 metrədəkdir. "The Straits Times" qəzeti yazır ki, suyun səviyyəsinin qalxmasına səbəb qlobal istiləşmədir.

Yaxın vaxtlarda daha dörd ada suyun altında qala bilər. Özü də onların birində - Salah Namaoda yaşayış var. Hazırda həmin ada suyun səviyyəsindən iki metr yuxarıda yerləşir.

## "Louis Vuitton" dünyada ən iri almazlardan birini aldı



Fransanın "Louis Vuitton" moda evi dünyada ən iri almazlardan birini (1758 karat) almışdır. Bu barədə "New York Times" qəzeti xəbər verir.

Məlumata görə, bu qiymətli daşı Kanadanın "Lucara Diamond Corp." dağ-mədən şirkəti Botsvanada hasil etmişdir. Ötən ilin aprelində şirkət adıçəkilən ölkədə kütləsi 1758 karat olan tünd rəngli iri almaz çıxardığını bildirmişdir.

Qeyd olunur ki, bu qiymətli daş bəşəriyyət tarixində ən iri almazlardan biridir. O həm də bugünədək Botsvanada hasil olunmuş ən iri qiymətli daşdır. Almazın çəkisi təqribən 352 qramdır. Şirkət qiymətli daşa görə ödədiyi pulun məbləğini açıqlamamışdır. Lakin bildirilmişdir ki, söhbət milyonlarla dollardan gedir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyevə anası

**ROZA NƏSİB QIZI ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyevə anası

**ROZA NƏSİB QIZI ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəlilabad Rayon Məhkəməsinin kollektivi Ali Məhkəmənin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7175
Sifariş 91
Qiymәti 40 qəpik